RAHİLƏ QARALOVA

MƏNDƏN NAĞIL UMMA, DÜNYA

MƏNDƏN NAĞIL UMMA, DÜNYA

(şeirlər)

“Elm və təhsil”
Bakı – 2017

RAHİLƏ QARALOVA

(Rahilə Seyfəddin qızı)

“Məndən nağıl umma, dünya” *(şeirlər)*.
Bakı, “Elm və təhsil”, 2017, 176 səh.

Şairənin**“Məndən nağıl umma, dünya”** adlı şeirlər kitabında son illərdə sadə dildə, hamının başa düşəcəyi tərzdə qələmə aldığı gəraylıları, qoşmaları və bayatıları özünə məxsus yer tutur.

Şairənin şeirləri zərif, kövrək və duyğulu şeirlərdi.

Rahilə xanım oxucuları ilə ikinci dəfədir görüşə gəlir. Şairənin bu şeirlər kitabı geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN 978-9952-8176-4-5

© R.Qaralova, 2017

ÖN SÖZ ƏVƏZİ

Qəzet və jurnalların bol olduğu bu dövrdə sosial şəbəkənin də mühüm öz yeri vardır. İstənilən məlumatları oxumaq, toplamaq və yazmaq sosial şəbəkədən geniş isti fadə edənlərin sayları daha da çoxalıb. Şeir həvəskarları, yeni qələm tutanlar öz yazılarını burada yerləşdirərək müzakirələrə verirlər. Müzakirələrə verilən şeirlərin yaxşı ları da var, zəifi də var. Yaxşı şeir müəllifləri mənim də nəzərimdən kənar qalmırlar. Belə müəlliflərdən biri də Rahilə xanım Qaralovadı. Onun sosial şəbəkələrdə paylaşdığı şeirlərə heç də biganə qala bilmirəm. Xeyli müddətdir ki, Rahilə xanımın paylaşdığı şeirləri izləyib, digər oxucular kimi ona öz fikirimi bildirirəm.

Rahilə xanımla ilk tanışlığım "Dirili Qurbani" məclisində oldu. Özü də yazdığı şeirlərə bənzəyir. Gözəl, səmimi, mehriban, bir qədər də azəri xanımlarına məxsus utancaqlıq gördüm. İlk tanışlıqdan ürəyimə yatan və hörmət bəslədiyim xanım oldu. Şairə xanım, mərhum Xalq Şairi Zəlimxan Yaqubun redaktoru olduğu "Qərib həsrəti" adlı ilk şeirlər kitabını mənə təqdim edəndə çox məmnun oldum və oxuduqca daha çox onu tanımağa başladım. Bu yaxınlarda Rahilə xanım növbəti şeirlər kitabının əlyazmalarını mənə təqdim edərək kitabının redaktoru olmağımı rica elədi. Əlyazmalarını bir-bir vərəqlədikcə onun söz aləminə, daxili aləminə baş çəkməyə başladım...

Redaktor ümumiyyətlə müəlliflə oxucu arasında bir vasitəçi, bir körpü rolunu icra edir. Müəllifin yazdığı şeirləri oxuculara təqdim edir və müəllifi onlara daha yaxından tanıtmaq missiyasını yerinə yetirir. Ona görə də müəllifin bəzi şeirlərini oxuculara təqdim edərək, bu
şeirlərində onun nə demək istədiyini oxuculara çatdırmaq istəyirəm....

Rahilə xanım əslən sazlı-sözlü diyarlarından biri olan Dağ Borçalının (Gürcüstan), Başkeçid (Dmanisi) şəhərinin Şahmarlı kəndində dünyaya göz açmış və 1988-ci illərdə məlum hadisəylə əlaqədar olaraq ailəliklə Bakı şəhərində yaşamağa və burada yazıb yaratmağa başlamışdı. Ona görə də müəllifin şeirlərində vətən həsrəti, vətən nisgili ilə yanaşı doğmalarından ayrı düşmüş həsrət dolu şeirləri əsas yer tutur.

... Əfsanəvi bir diyarda doğuldum,
Əziz idi, torpağı da, daşı da.
Qürbət elin baharından, yazından
Gözəl idi, öz yurdumun qışı da...

- sözlərini yazan şairə xanım başqa bir şeirində qəribliyin nə olduğunu, qəmli çağlarında qardaşına şeirlə necə müraciət elədiyini oxucuların nəzərinə çatdırıram.

... Boylanaq göllərin su sonasına,
Boyanaq mamırlı daş xınasına,
Ziyarət eləyək el Anasına,
A qardaş, gəl apar, Vətənə məni...

Şairə xanım Vətən keşiyində duran əsgərlərimiz haqda, Xocalı faciəsi haqda, 4-aprel döyüşlərində həlak olmuş şəhidlərimiz haqda yazdığı şeirlər, elə də düşməni ağır itkilərə məruz qoyan şahinlərimiz haqda belə yazır...

Vətənin mərd oğlusuz,
Qeyrət çəkən ər oğlusuz,
Düşmənlərə dərd oğlusuz,
Azərbaycan şahinləri...

Kövrək duyğulu şairə xanım Ana həsrətini öz şeirində kövrək-kövrək belə tərənnüm edir.

... Qayğısız körpə tək yatmış könlümü,
Yenə də ay Ana, sənmi oyatdın?!
Sənsizlik məhv edib mənim ömrümü,
Qoxunu ay Ana, mən kimdən alım?...

... və başqa bir şeirində Ana laylasının sehrinə dalaraq o xoş anları gözləri dola-dola belə xatırlar...

...Anama həsrətəm Gunəş-Ay kimi,
Susuz səhralara axan cay kimi,
Ünvana yetməyən bir haray kimi,
Nə tez sona yetdi, sona laylası...
Anamın laylası, sona laylası.

Vəfalı ömür-gün yoldaşına həsr etdiyi şeirdə onun səmi miliyindən, ailəcanlı olduğundan bəhs edir...

... Ürəyimdən hər keçəni duyursan,
Dərd-qəmimi ilmələyib oyursan,
Ailəni dağ başına qoyursan,
Ay həyat yoldaşım, sirim-sirdaşım...

Şairə xanımın təbiət haqda qələmə aldığı şeirləri də ürəyə yatımlı və çox təbii şeirlərdi.

Hər tərəf al-əlvan çiçəklənibdi,
Açılan çiçəklər ləçəklənibdi,
Gəlin tək bəzənib, göyçəklənibdi,
Üzünə salıbdı tülü təbiət...

... və başqa bir şeirində şairə baharın gəlişi, təbiətin oyanışı, əlvan güllərin təbiətə bir gözəllik verməsini belə təsvir eləmiş...

Təbiət bürünüb yaşıl bir tülə,
Şeh düşüb gül üstə, bax, gilə-gilə,
Rahilə də dönüb şeyda bülbülə,
Təbiət güləndə, bahar gələndə...

Rahilə xanım "**Məndən nağıl umma, dünya"** şeirlər kitabında sevgi-məhəbbət mövzusuna daha böyük yer ayırmışdır. Burada vəfa, sədaqət, hörmətlə yanaşı etibarsızlıq haqda da öz şeirlərində qabarıq şəkildə vermişdir.

Sən qəlbimə işıq verən,
Bir ümidin işığısan.
Mən məhəbbət dəlisiyəm,
Sən məhəbbət aşiqisən...

Elə bir şair, elə bir yazar yoxdur ki, dünya haqqında nəsə yazmasın. Kimi dünyanın gözəlliyindən, kimisi vəfa sızlığından yazır, hərənin dünyaya baxışları müxtəlif olduğu kimi yazdıqları da bir-birindən seçilir. Rahilə xanım da özünə məxsus dünya haqda yazdığı şeirlərinin birində belə yazır...

Sevinc mənim tacım oldu,
Qüssə-kədər bacım oldu,
Nisgil-ağrı acım oldu,
Məndən noğul uman dünya...

Rahilə xanımın bu şeirlər kitabında müxtəlif mövzulu şeirləri ilə yanaşı şifahi xalq incilərindən olan bayatılara da xüsusi yer ayırmışdır. Bayatıları da rəngarəgdir. Onlardan, Vətən haqda yazmış olduğu bayatılardan bir bəndini oxucuların nəzərinə çatdırmaq istəyirəm.

Əzizinəm Vətən dərdi,
El dərdi, vətən dərdi
Bütün dərdlər unudular,
Unudulmaz Vətən dərdi...

Rahilə xanım həyatın düz gözlərinin içinə baxa-baxa sabaha ümidlə baxır, ürəyindən keçən bütün arzu və istək lərinə yetəcəyinə inanır və ümid bağlayır...

Deyirlər ümidlə yaşayır insan,
Ümidsiz yaşamaq çətindir inan.
Arzuyla, istəklə hər gün, hər zaman,
Mən də öz arzumla yaşayam gərək...

Mən də Rahilə xanıma ümidlərinin, arzularının çin olma sını arzulayıram. Qoy həmişə ilhamınız tükənməz çeşmələr tək daima çağlayan olsun. Qələminiz iti, sözləriniz kəsərli, yaradıcılıq yolunun enişli və yoxuşlu yollarını inamla addımlamağınıza ümid bəsləyirəm. İnanıram ki, növbəti kitablarınızda daha da gözəl və mənalı şeirlərinizlə oxucularınızın görüşünə gələcəksiz və onları sevindirəcəksiniz. Sizə bu çətin və məsuliyyətli yaradıcılıq yolunda uğurlar olsun deyirəm!

SƏDİ YARADANQULU
AYB və AJB üzvü

YARIM

Göz yaşlarım vərəq üstə sətirlənib,
Kəlmələrim qəm kədərlə ətirlənib,
Dərdlərimlə ömrüm günüm çətirlənib,
Məni xoşbəxt, qəm qüssəsiz sanma yarım.

Səhralarda yanmayasan suyun olum,
Nərgiz olum, Süsən olum sənlə solum,
Sınan qəlbə, yatan bəxtə meh tək dolum,
Nakam sayıb, sevgimizi danma yarım.

Bağrım başı od alovsuz köz-köz olub,
Gözlədiyim illər boyu bir söz olub,
Eşitdiyim, söylədiyin, sən döz olub,
Sevirəm de görüşəndə, donma yarım.

Bilirsənmi həsrətindən üzülürəm?
Xəzəl ömrə inci kimi düzülürəm,
Gözlərinlə ürəyinə süzülürəm,
Rahiləyi ağlayanda anma yarım.

SƏN MƏNİM OL

Nur şəfəqsən gözlərimdə,
Güc, taqətsən dizlərimdə,
Bir diləksən sözlərimdə,
Sən mənim ol, mən də sənin.

Həsrət olmaz bizə tuzaq,
Üşütməsin soyuq sazaq,
Yalanı xoş sözə yozaq,
Sən mənim ol, mən də sənin.

Mənim üçün şöhrət şansan,
Damarımda axan qansan,
Candan əziz mənə cansan,
Sən mənim ol, mən də sənin.

Rahiləyəm gün, ay olum,
Zümzüməli bir çay olum,
Sevim səni yar, tay olum
Sən mənim ol, mən də sənin.

KİMİ...

Günəş qaranlıq axtarır,
Mən səni axtaran kimi.
Bu nə dərddir məndə qalır,
Dağda çovqun, boran kimi.

Həsrət, hicran yaş andırdı,
Ayrılığı eşq qandırdı,
Sənsizlik məni yandırdı,
İsti səhra, aran kimi.

Rahilə ah-zar eləmə,
Qara saçı qar eləmə,
Sevirəm de, ar eləmə,
Qəlbini eşq saran kimi.

QIZILGÜLƏ BAX

Qızılgülə bax, gülüm,
Rəmzidi məhəbbətin,
Sevən dərib göndərir,
Bildirir öz niyyətin..

Qızılgülə bax, gülüm,
Gör nə gözəl açıbdı,
Səhər-səhər baxçadan,
Gül ətrini saçıbdı.

Qızılgülə bax, gülüm,
Yavaş toxun sən ona
Tikanlıdı, asta üz,
Ver sevdiyin canana

Qızılgülə bax, gülüm,
İncədi sənin kimi.
O, sənə bildirəcək,
Sənə olan sevgimi..

BİZİM GƏRAY

Oxşarı yox, igid ərdi,
Dar günlərə sinə gərdi.
Dost əllərə əlin verdi,
Mərd oguldu, bizim Gəray .

El-obada var hörməti,
Xoş məramı, xoş niyyəti,
Çəkir oba, el qeyrəti,
Mərd oğuldu, bizim Gəray.

Faxralıdır dogma eli,
Cox şirindi ləhçə, dili,
Bilən bilir, bilin bəli,
Mərd oguldu, bizim Gəray.

Borçalının ürəyidi,
Abbas, Yusif gərəyidi,
Ata-ana diləyidi,
Mərd oğuldu, bizim Gəray.

Bir günəşdi elimizdə,
Adı-sanı qəlbimizdə,
Ay Rahilə, deyək biz də,
Mərd oguldu, bizim Gəray.

SƏNSƏN

Yanan ürəyimi söndürməyə gəl,
Alışıb yanıram, təbibim sənsən
Ala gözlərinin həsrətindəyəm,
Arzum, vüqarım diləyim sənsən.

Bu nə həsrətdi salmısan cana,
Azqalır od tutub alışa yana,
Gəl başına dönüm qurbanam sana,
Məhəbbət yolunda köməyim sənsən.

Bu əziz günümdə gəl, görüm səni,
Məhəbbət dünyama götürüm səni,
Qoxlaya-qoxlaya, qoy öpüm səni,
Həvəsim, nəfəsim, ürəyim sənsən.

Sevən unudarmı belə gözəli?!
Görməsəm ölərəm, ya ollam dəli,
Əlimə toxunsun Rahiləmin əli,
Bilki bu dünyada gərəyim sənsən.

QAYNANA

Əksilməyir təbəssümün üzündən,
Doymaq olmur söhbətindən, sözündən,
Şölə saçır, nur ələnir gözündən,
Gəlinlərin anasısan, qaynana!
Evimizin çırağısan, qaynana!

Haqq sözünü eşidirik dilindən,
Ətir gəlir çiçək kimi telindən,
Əksilməyir bərəkətin əlindən,
Toy-busatlar sorağısan, qaynana!
Evimizin çırağısan, qaynana!

Qız-gəlinə, sən həmişə dayaqsan,
Gecə-gündüz yatmayırsan, oyaqsan.
Rəhilənin haqq yolunda mayaqsan,
Ömrümüzün çırağısan, qaynana!
Evimizin çırağısan, qaynana!

YARI ŞİRİN YARI ACI

Nə mənalı baxışın var,
Yarı şirin, yarı acı,
Dodağında təbəssüm var,
Yarı şirin, yarı acı.

Ömür yolu yaman sərtdi,
Çəkdiyimiz ağır dərddi,
Bilmirəm bu nə həsrətdi,
Yarı şirin, yarı acı.

Həsrət məni sıxır yaman,
Xəstəlikdə vermir aman,
Qismətimdi rəngli dərman,
Yarı şirin, yarı acı.

Qonaq olum gecə-gündüz,
Süfrəyə bal, qaymaq da düz,
Sən şərabı badəyə süz,
Yarı şirin, yarı acı.

Ömür ötüb yarı olur,
Gözəllər də qarı olur,
Həsrət onun yarı olur,
Yarı şirin, yarı acı.

Ürək var ki, sevgi dolu,
Həyat var ki, kəsə yolu,
Çəmənləri döyür dolu,
Yarı şirin, yarı acı.

QURBAN OLUM AY ANA

Yollarıma işıq tutan, nur tutan,
Gül əlinə qurban olum, ay Ana!
Qara saçı ağ eylədin vədəsiz,
Ağ telinə qurban olum, ay Ana!

Hey dolandın övladların başına,
Ayaq döydün dərdin, qəmin daşına,
Sevincimdə düşdün sevinc yaşına,
Yaş selinə qurban olum, ay Ana!

Bağışlayar Ana günah edəni,
Gördüm deməz asan xoş gün güdəni,
Xoş sözlərlə o, qaytarar gedəni,
Xoş dilinə qurban olum, ay Ana!

HEÇ...

Gəl, gözümün qarası, gəl,
Gözüm sənsiz görərmi heç?
Sənsən ürək parası, gəl,
Para ürək vurarmı heç?

Sənsiz dərdə dözəmmirəm,
Qəm şələli gəzəmmirəm,
Gülü yerdən üzəmmirəm...
Sənsiz üzüm gülərmi heç?

Rahilə ömür vəfasız,
Söylə, qaldın niyə yarsız?
Səni atan o, vəfasız?
Küsübsə də gələrmi heç?

OXU BÜLBÜL

Xəncər sancıb kürəyimə,
Dağ çəkirsən ürəyimə,
Zəhər qatma çörəyimə,
Qəm çələngi toxu, bülbül,
Yalvarıram oxu, bülbül.

Sevənin göz yaşındasan,
Çatılan qəm qaşındasan,
Xarıbülbül başındasan,
Vur həsrətə oxu, bülbül,
Yalvarıram oxu, bülbül.

Könüllərdən keçən sənsən,
Cənnət suyu içən sənsən,
Qəfəsi ev seçən sənsən,
Çiçək ətri qoxu, bülbül,
Yalvarıram oxu, bülbül.

Həzin-həzin layla çalıb,
Xoş anları yada salıb,
Aşiqlərin könlün alıb,
Heyran sənə çoxu, bülbül,
Yalvarıram oxu, bülbül.

AXTARIRAM

Nə yaman çətind, a dostlar mənə,
Yolları bağlayıb qar, axdarıram.
İtibdi baxcamın gülzarı mənim,
Eşqinə vəfalı yar, axtarıram.

Bilmirəm nə olub, niyə görünmür,
Qəm-kədər qəlbimdən vallah silinmir,
Bilmirəm nədəndi bu geniş dünya,
Olubdu bu başma dar, axtarıram.

Tər şamama idi, bostan tağımda,
Şeyda bülbül idi, sevgi bağımda,
Olardı hər zaman solum, sağımda
Harda qaldın indi, yar, axtarıram?

Eh, nədən bəxdimə qəm yazdı fələk
Ayrılıq başıma gələydi, gərək?
Elədim dünyanı hey ələk-vələk,
Tapmadım hər yanda, yar axtarıram.

Rahilə bəxdindən oldu gileyli,
Ondadı ürəyi, ondadı meyli,
İtibdi əzizi, o gözəl leyli,
Bil, məni yandıran yar, axdarıram.

SƏNİ SEVİRƏM

Gözümü şəklindən çəkə bimirəm,
Mən səni sevirəm, səni sevirəm...
Bu həsrət yükünü çəkə bilmirəm,
Daha qəmli səsi, ünü sevirəm,
Mən səni sevirəm, səni sevirəm.

Həsrətin saçıma ağı gətirib,
Köksümü dağlayan dağı gətirib,
Xəyalım o sənli çağı gətirib,
Sənli anlarımı, günü sevirəm,
Mən səni sevirəm, səni sevirəm,

Gözlərim dikilib gözündə qalıb,
Baxışların donub üzündə qalıb,
Duyğulu sözlərim sözündə qalıb,
Sən mənə verdiyin zülmü sevirəm,
Mən səni sevirəm, səni sevirəm.

NİYƏ SEVMƏYİM SƏNİ?

Həyat gözəlliyin səndə tapmışam,
Mən niyə bu qədər sevməyim səni?
Həqiqi sevməyi səndə görmüşəm.
Bəs niyə ürəkdən sevməyim səni?

Demə, sevgi başqa, sevilmək başqa,
Bu sevgi aləmi başqadır-başqa,
Heç kimi sevmərəm, bil səndən başqa,
Bəs niyə ürəkdən sevməyim səni?

Rahilə sevgisin, sevənlər bilər,
Həsrətdən alışıb, yananlar bilər,
Sevgidən ilhamı alanlar bilər.
De, niyə ürəkdən sevməyim səni?

SƏN OLAYDIN

Xəyalınla gəzəndə mən,
Ürəyimə sən dolaydın.
Gözlərim yol çəkən zaman,
Yanımda tək sən olaydın.

Uca zirvə, dağ gəzəndə,
Çəmənlikdən gül üzəndə,
Saçlarıma gül düzəndə.
Kaş yanımda sən olaydın.

Arzu gözəl, arzu şirin,
İsdəyidi ürəklərin,
Yarın deyir, hər səhərin,
Xoş görüşü sən olaydın.

DƏYDİ

Göz dikildi qara gözə,
Əlim ipək telə dəydi.
Dodaqdakı cürətə bax,
Təzə qönçə, gülə dəydi.

Sevgi kamın indi bildim,
Dilə gəlib ney tək dindim,
Sevgimizi yarı böldüm,
Əlim ipək ələ dəydi.

Gözündəki nur işığa,
Heyran qaldım yaraşığa.
Döndüm acgöz sarmaşığa,
Qol dolandı, belə dəydi,

Sevgi ətri çox gözəldi,
Rahilə sənsiz heç dözərdi?
Bu gün ömrümü bəzərdi
Bir görüş, bir ilə dəydi.

BİLMİRƏM

Dumana düşmüşəm, çənə düşmüşəm.
Ardınca qaçıram, çata bilmirəm.
İnan, sənsiz yaman günə düşmüşəm,
Özümü ayaqda tuta bilmirəm.

Getdiyin yollarda qalıbdı gözüm,
Belə ayrılığa mən necə dozüm?
Gedib sənə çatmır nə edim sözüm,
Yuxum ərşə çıxıb yata bilmirəm.

Bilmirsən sevdiyin, ölübdü, sağdı,
Sinəmdə döyünən sən çəkən dağdı.
Ağlamaqdan gözüm tutulub, ağdı,
Kor oldum, axdardım, tapa bilmirəm.

XƏYALLAR ÜMİDLƏR ÖLMƏSİN

Araya heç zaman girməyə yalan,
Dağıdıb könlümü etməyə talan,
Həsrətdən kədərdən bizə, nə qalan?
Sevənlər qüssəni bilməsin, Allah!

Xoşbəxtlik hər kəsin qisməti ola,
Həyası, abırı, isməti ola,
Sevincin-şadlığın qiyməti ola,
Qəm-qüssə üzlərdə gülməsin, Allah!

Baxışı gözümə kəməndi atdı,
Ömrümə ilk sevgi nəşəsi qatdı,
Gözlərim gözündə arzuya çatdı,
Xəyallar, ümidlər, ölməsin, Allah!

Xainlər sevgimə qursa da tələ,
Rahilə vəfasız olmayıb hələ
Arzum var hər anda versin əl-ələ,
Sevənlər ayrılıq görməsin, Allah!

X O C A L I

O gecə ağlayan kaman dinlədim,
Göylərə yalvaran aman dinlədim.
O orda, mən burda yanıb inlədim,
Ruhum dolandığı candı, Xöcalı.
O gecə alışdı, yandı Xocalı.

Səsləndi aramsız topların səsi,
Allaha çatmadı insan naləsi.
Öldü qocaları, öldü körpəsi
Torpağın suvaran qandı, Xocalı,
O gecə alışdı, yandı Xöcalı.

Güllələr göylərdə, alov saçırdı,
Ölümə durmadan yollar açırdı.
Kimi yıxılırdı, kimi qaçırdı,
İlk dəfə ölümü andı Xocalı,
O gecə alışdı, yandı Xocalı.

Çoxun şaxta vurdu, yollarda dondu,
Qırılan bir deyil, beş deyil, ondu…
Sankı qiyamətdi, elə bil sondu,
Özünü tək, yalqız sandı Xocalı.
O gecə alışdı, yandı Xocalı.

Haraydan çoxunun səsi də batdı,
Eşidən kim oldu, kim haya çatdı?
Gəlinlər özünü qayadan atdı,
Bunu nicad yolu sandı, Xocalı.
O gecə alışıb yandı Xocalı.

GƏLƏRƏM...

Başın üstə bulud ollam,
Gün qaraltmaz, yayda səni,
Suya düşüb buz olaram.
Yandırmaz su, çayda səni,

Dönüb yelə tez gələrəm,
Dərə-təpə, düz gələrəm,
Alışma sən, döz gələrəm...
Yandırmaz gün ayda səni.

Rahilə gələr, qurban olar,
Sən istəsən, mehman olar,
Gələr sənlə bir can olar,
Yandırmaz ah-vay da səni.

MƏNİ

Gözüm yalnız səni gəzir,
Nə yorulur, nə də bezir.
Qoyma həsrət məni üzür...
Bir gəl ara məni-məni,

Sevgi oddu, sevgi közdü,
Yalnız aşiq ona dözdü.
Demə ki, bu ötər sözdü,
Sevirəm mən, səni-səni.

Rahiləyə ver bir aman,
Qalmasın o, eşqə güman.
Səninəm mən hər bir zaman ,
Gəl sevindir, məni-məni.

NƏDİ

Öz-özümə dağ çəkirəm,
Səbəb nədi, günah nədi?
Alışaraq, ah çəkirəm,
Bu nə kədər, bu ah nədi?

Dərd üstündən sən dərd qoyma,
Ürəyimdi oyma-oyma.
Amandı yar, yada uyma,
Gözü yaşlı sabah nədi?

Ürəyimdə yenə sevgi,
Yanir, qoyma sönə sevgi.
Tükənmirsə sənə sevgi,
Bu nə danlaq, qınaq nədi?

Rahilə düşüb oduna.
Salırsanmı, heç yadına?
Etibar et, bu qadına...
Yerli, yersiz sınaq nədi?

VAR İÇİNDƏ

Qızılgülə bax məhlədə,
Qızarır ağ qar içində,
Çox güclüdü məhəbbəti,
Sönməz odu, var icində.

Zalım soyuq divan qurur,
Gül üşüyür, titrək durur..
Duruşunda vüqar, qürur,
Qalmayıbdı tar içində.

Rahilə, eşq olar belə,
Soyuq təsir etməz gülə.
Toxunmayın, bilə-bilə
Ölməz sevgim var içimdə.

AXŞAM OLDU...

Günəşin başına Yer də dolanır,
Bu bir Allah sirri, bir həqiqətdir.
Sevənin başına, sevən dolanır,
Bu da sevən üçün bir səadətdi.

Gəl, sənin başına dolanım mən də,
Bu arzu qalmasın sevən sinəmdə
Yaxın gəl, yaxın gəl, yaxın gəl sən də,
De ki, bu sevgidi, bu məhəbbətdi.

Rahilə yolunda yanan şam oldu,
Gözləyə-gözləyə bax axşam oldu,
Sən gəlib çıxmadın pərişan oldu,,
Bu nə məhəbbət, nə sədaqətdi?

NAZ GÖZƏLİM

Hava soyuq qar da yağdı,
Həsrətindən sinəm dağdı,
Ürək vurur, hələ sağdı,
Əlac elə yaz, gözəlim,
Gəl eləmə naz, gözəlim.

Axı səni sevən mənəm,
Çox düşünən, qəlbi genəm,
Səsin gəlmir gözəl sənəm,
Səbrım qalıb az, gözəlim,
Naz eləmə, naz, gözəlim.

Sənsən mənim ciyər dağım,
Boş qalıbdı solum, sağım,
Yollarına çoxmu baxım?
Geçdi mənnən vaz, gözəlim?
Naz eləmə, naz, gözəlim.

Rahilə səni sevir, gələr,
Duz başına çevir, gələr,
Elə zaman dövür gələr,
Tutar səni söz, gözəlim,
Naz eləmə, naz, gözəlim.

BAŞKEÇİDİN QIZLARI

Türk əsilli gözəldi,
Başkeçidin qızları,
Saf nəsilli gözəldi,
Başkeçidin qızları.

Zor işi çaş- baş qoyar,
Daş üstünə daş qoyar,
Eşq yolunda baş qoyar,
Başkeçidin qızları.

Quş olub qanadlanar,
Hər əzaba qatlanar,
Həcər kimi atlanar,
Başkeçidin qızları.

Onlar inci, dürdülər,
Qəlbə dolan nurdular,
Gözəllikdə birdilər,
Başkeçidin qızları.

MƏN NECƏ UNUDA BİLƏRƏM AXI?

Məni məndən alan qara gözləri,
Mən necə unuda bilərəm axı?
Sevirəm dediyin odlu sözləri,
Mən necə unuda bilərəm axı?

Ayrılıq sinəmə çəkməsin dağı,
Talanar həsrətdən könlümün bağı.
O gözəl anları, o gözəl çağı,
Mən necə unuda bilərəm axı?

Sən mənim ağlımı başdan almısan,
Adımı çəkərək dilə salmısan...
Sən mənim taleyim, bəxtim olmusan,
Mən necə unuda bilərəm axı?.

ALIBDI

Dağlarımdan uçub qartal,
Zirvələri sar alıbdı.
El yoluna boylanmaqdan,
Gözləri də saralıbdı.

Uca dağlar vüqarımdı,
Bol bəhrəli tək varımdı.
Qarabağım diyarımdı,
Heyif, gülün xar alıbdı.

Ay Rahilə, gələr sabah,
Gedər qəmin, gedər bu ah.
Qələbəyə Allah pənah,
Çətin günün daralıbdı...

BU NƏ DƏRDDİ...

Ağlar gözüm Vətən darda,
Elim qalıb çadırlarda,
Döyüş orda, özüm burda,
Bu nə dərddi, düşdük, Allah!

Baba, nənə yurdu anır,
Rüşvət alan sözü danır,
Görən yoxmu, qəlbim yanır,
Bu nə dərddi, düşdük, Allah!

Düşmən topu sıraladı,
Eli kənddən araladı,
XOCALIMI paraladı,
Bu nə dərddi, düşdük, Allah!

Xarıbülbül dağ başında,
Xar olubdu göz yaşında,
Qəm düzülüb göz-qaşında,
Bu nə dərddi, düşdük, Allah!

QARABAĞDA dağım, daşım,
Oldu şəhid, can qardaşım,
Çətin yolda haqq savaşım,
Bu nə dərddi, düşdük, Allah!

SEVGİ HƏSRƏTİ

Nə yaman çətindi, sevgi həsrəti,
Onuda sənlə bölə bilmirəm,
Necə çəkəcəyəm tək bu həsrəti,
Bu necə əzabdı, bilə bilmirəm.

Qaralar bağladı telimə mənim,
Baxmadı gözümün selinə mənim,
Dərdi şələlədi belimə mənim,
Taleyim ağırdı, gülə bilmirəm.

Qəm gəldimi, sevincimi alandı,
Xəyal dünyam qara, viran, talandı,
Məndən sevgi, səndən həsrət qalandı,
Gözümün yaşını silə bilmirəm.

Rahilə, sevdiyin ürək parandı,
Sevgisi qəlbində möhkəm qalandı,
Həsrətdən ürəyim yaman talandı,
Necə salım onu dilə, bilmirəm.

KƏNDİMƏ

Ay aman, nə yaman oxşayır bura,
Dağları hər zaman boran kəndimə,
Çölləri həmənki, yolları oxşar,
Uzaqdan boylanıb, duran kəndimə!

Gəlir göz önünə hər dağ, hər dərə,
Arzular sinəmdə can verə-verə...
Yaman bağlanıbdı hər yol, hər bərə,
Od yağan, kül olan, viran kəndimə!

Dağıldı ellərim, talandı yurdum,
Ulayır dağlarda yaralı qurdum,
Nə qədər əlçatmaz xəyallar qurdum,
Arxamca boynunu buran kəndimə!

Rahilə, sinəndə illərin dağı,
Mən necə unudum girov tapdağı?
Qayıdar yurdumun o gözəl çağı,
Dönərəm sinəmdə vuran kəndimə.

GƏLLƏM

Səni unudarmı sevən ürəyim,
Səmadan ulduzlar üzməyə gəlləm,
Yaşıl çəmənlikdə, Ay işığında,
Səninlə qol-boyun gəzməyə gəlləm.

Yanıram mən sənsiz, şam yanan kimi,
Pərvanə varlığın bil, danan kimi,
İnləyib sizlayan bir kaman kimi,
Telini yan-yana düzməyə gəlləm.

Atıb bu həsrəti, atıb bu qəmi,
Ollam sevincinin mən də həmdəmi,
Unutmaz heç vədə Rahilə səni,
Baş qoyub sinənə ölməyə gəlləm.

İÇİNDƏ

Yadıma düşürsən, ay sənə qurban,
Həsrətin içində, qəmin içində,
Oduma yanırsan, ay sənə qurban,
Alovun içində, dəmin içində.

Niyə düşmüşük qəmin oduna?
Həsrətəm sevginə, sənin dadına,
Belə gözəlliyə, belə qadına,
Bağlıyam, etibar, əmin içində.

Rahilə, sevgimin atəşi sönməz
Məhəbbət ilhamım göylərdən enməz,
Sevən də lal olar, ağlayar gülməz,
Üşüyər göz yaşlı, nəmin içində.

GƏL GÖRÜŞƏ

Günəş tezdən oyananda,
Aləm nura boyananda,
Şəfəq gözə dayananda,
Gəl görüşə, ay sevdiyim.

Bülbül nəğmə oxuyanda,
Gülə sevgi toxuyanda,
Çəmən ətri qoxuyanda,
Gəl görüşə, ay sevdiyim,

Sərin külək meh əsəndə,
Gül üstünə şeh düşəndə,
Hər yadına mən düşəndə,
Gəl görüşə, ay sevdiyim,

Bu sevdadan dönmərəm mən,
Eşq odudu, sönmərəm mən,
Külə dönsəm, dinmərəm mən,
Gəl görüşək, ay sevdiyim.

Rahiləyəm, lal olaram,
Sevincdən xoş hal olaram,
Gəlməsən bihal olaram,
Gəl görüşə, ay sevdiyim.

HARDASAN?

Gözlərim axtarır hər yanda səni,
Hardasan, gözümün qarası mənim.,
Gəl qov ürəyimdən dumanı, çəni,
Hardasan, dünyamın parası mənim?

O məsum baxışın, o qara gözün,
Önündə çaşıram, biləsən özün.
Görəndən o eşqin atəşin, közün,
Sağalmır sinəmin yarası mənim.

Qəlbimə yol salıb, elə iz qoydun,
Əbədi sönməyən alov, köz qoydun.
Qaysaq yaraları oyadıb, soydun
Hardasan könlümün çarası, mənim.

SƏNƏ HEYRAN

Telinə çiçək düzən,
Baxışı canlar üzən,
Uzaqdan məni süzən,
Gəl yaxına a ceyran,
Olmuşam sənə heyran.

Nur süzülür yanaqdan,
Bal süzülür dodaqdan,
Boylanırsan uzaqdan,
Gəl yaxına a ceyran,
Bağlayaq əhdi peyman.

Uzaq getmə, mənim ol,
Ürəyim ol, tənim ol,
Həsrətimə qənim ol,
Gəl yaxına a ceyran.
Olmuşam sənə heyran.

Salmısan məni oda,
Gəlməsin sənə qada,
Kimim var bu dünyada,
Sevdim səni a ceyran,
Olmuşam sənə heyran.

ƏNGİRƏVAN

Neçə dərdə sinə gərib,
"Sarı qaya" kölgə sərib,
Olmayıbdı heç vaxt qərib,
Dağ başında bir növ cavan,
Gözəl kəndim, Əngirəvan.

Gül-çiçəkli oylaqlıdı,
Elatlıdı, yaylaqlıdı,
Diş göynədən bulaqlıdı
Qoy var olsun elin, oban,
Gözəl kəndim, Əngirəvan.

Teymur yurdu bir mənzərə,
Çullu təpə bənzər zərə,
Gəlməyəsən pis nəzərə,
Qoy könüllər olsun rəvan,
Gözəl kəndim, Əngirəvan.

Çiçəyindən şeh üzülüb,
Pətəyindən bal süzülüb,
Dağ döşünə gül düzülüb,
Hər çiçəyin dərdə dəvan,
Gözəl kəndim Əngirəvan.

Ömrüm, günüm keçib orda,
Qoymayıbdı bizi darda,
Yaddan çıxmaz olsaq harda,
Dərdə dərman suyun, havan,
Gözəl kəndim Əngirəvan.

Əngiravan- Borçalının Başkeçid (Dmanisi) rayonunda kənd adıdı.

SÖYLƏDİ

Bir gözələ mehman oldum,
Qucaqlayıb, qal söylədi.
Sarıldım ki, kama çatım,
Dəymə bu gün, kal söylədı.

Dodaq qaymaq, beli incə,
Açılmamış güldü, qönçə,
Alışmışdı oda, məncə,
Dil,dodağı bal, söylədi.

Baxçasından bar götürdüm,
Dərdim gülün, nar götürdüm,
Ağ sinədən qar götürdüm,
Yarım, kamın al, söylədi.

SƏNƏ GÖRƏ

Qəmli-qəmli dinən sazam,
Vaxtsız gələn bahar, yazam,
Dərd əlində işvə nazam,
Ona görə güləmmirəm.

Bir ürəyik, bədən ayrı,
Zaman verdin, vədən ayrı.
Düşdük niyə, nədən, ayrı?
Səbəbini biləmmirəm.

Gəl gecəmə bir Ay kimi,
Ax qəlbimə bir çay kimi,
Böldün məni bir pay kimi,
Abırımdan dinəmmirəm..

Bulud olub yay gələsən,
Günlərini say, gələsən.
Sevib mənə, tay gələsən,
Sənə görə öləmirəm.

YOXDU

Belə zaman gəldi, dəli-tərsinə,
Astarın üzünü deyəndə yoxdu,
Yalanlar uydurlur düzün əksinə,
Keçmişin düzünü deyən də yoxdu.

Yüzü yaşamaqçün ,bircə şərtdə var,
İnsanın ölümü, bircə dərdə var,
Şeytan barmağında bir namərdə var,
Mərdlərin yüzünü deyən də yoxdu.

Baxdım bu dünyaya, mərcdə eylədim,
Diz çökdüm Allaha səcdə eylədim,
Yuxumda ziyarət Həccdə eylədim,
At dağdan özünü deyən də yoxdu.

Qələmin kəsəri, nizədi oxdu,
Kasıbın nəfsi də həmişə toxdu,
Nə olsun Vətəndən yazan da çoxdu,
Rahilə, sözünü deyəndə yoxdu.

SƏNİN

Gülə baxan, gül gözəlim,
Qadanı mən, alım ,sənin.
Görüşümə gəl, gözəlim,
Qol boynuna salım, sənin.

O güllərdən sən gözəlsən,
Bəxtimə düşən gözəlsən,
Məni dərdən üzən sənsən,
Qoy ürəkdə qalım, sənin.

Əlindəki gülə dönüm,
Yana-yana külə dönüm,
Mən də şirin dilə dönüm,
Olsum şəkər, balın sənin.

APARIN DAĞLARA MƏNİ

Gözlərim süzüldü xəyala daldı,
Xəyallar, aparın dağlara məni,
Sevdiyim uzaqda, dağlarda qaldı,
Xəyallar, aparın dağlara məni.

Gəl,sən məni apar, sevgiyə dönüm,
Müqəddəs sevgiyə qoy dönsün yönüm.
Məndən qoy tez çatsın dağlara ünüm,
Xəyallar, aparın dağlara məni.

Od alov qalansın soyuq baxışda,
İsinsin qaya da, isinsin daş da...
Həsrətim ərisin narın yağışda,
Xəyallar, aparın dağlara məni.

Rahiləyəm, qəlbim dağlara bağlı,
Dağlar da mənim tək həsrətdən dağlı.
Qəribəm cığırım, yollarım bağlı,
Xəyallar, aparın dağlara məni.

SEVGİNİN...

Aşiqdir xəyalda saraylar tikən,
Sevib, sevdiyinin nazını çəkən...
Hələ açılmamış tər qönçə ikən,
Şaxtaya düşməsin yonu sevginin.

Fərhad dağlar yardi qayalar capdı,
Məcnun sevgisinə səhrada "çatdi",
Kərəm də özünü odlara atdı,
Küldən biçilməsin donu sevginin.

Sevənlər sevgiyə kədər qatmayın,
Eşqi-məhəbbəti pula, satmayın,
İnanıb hər sözə, yarı atmayın,
Kədərlə bitməsin sonu sevginin.

XALAM

Tər meyvətək yetişmədi,
Heç oynayıb gedişmədi,
Ana səsi eşitmədi,
Xəyallara dalan xalam,
Ömrü, günü talan xalam.

Hər addımı daşa dəydi,
Övlad dərdi qəddin əydi,
Yas libası qara geydi,
Dərdli qəmli olan xalam,
Gözü yaşla dolan xalam.

Saf bulaqdan su da içdi,
Qol çırmayıb, ot da biçdi,
Yandı, söndü vaxtsız köçdü,
Od alovda yanan xalam,
Gül tək açıb solan xalam..

Ay Rahilə, ilnən gedib,
Xeyir duan dilnən gedib,
Sənin xalan selnən gedib,
Ürək dərdə salan xalam.
Yad ellərdə qalan xalam.

ANAMIN LAYLASI

Başımı çiçəklər üstə qoyduran,
Şirin laylasiyla məni doyduran,
Gecələr yatmayıb bala ovduran,
Qaranlıq gecəmə qona laylası...
Anamın laylası, sona laylası.

Anasız qalmışam tənhayam özüm,
Axtarır hər yanda, boylanır gözüm,
Hicranın odunda qovrulur kozüm...
Dəm verir elə bil cana laylası,
Anamın laylası, sona laylası.

Gözümdən süzülən onun qəmidi,
Al lalə yanağa düşən nəmidi,
Uzun gecələrin o həmdəmidi,
Qorxuram, soyuqda dona laylası,
Anamın laylası, sona laylası.

Gözləri yol çəkir, sonu görünməz,
Dərdim batman kimi, bir kimsə bilməz,
İcimi yandiran alovdu, sönməz,
Ana yağısıyla, yana laylasi...
Anamın laylası, sona laylası.

Anama həsrətəm Gunəş-Ay kimi,
Susuz səhralara axan cay kimi,
Ünvana yetməyən bir haray kimi,
Nə tez sona yetdi, sona laylası...
Anamın laylası, sona laylası.

ÖZÜNƏ ÖYRƏTMƏ MƏNİ

Bu bir sevgi deyil, bəlkə həvəsdi,
Qəfildən çıxaraq yolumu kəsdi?
Bu sevgi uzaqdan gələn bir səsdi,
Qorxuram, sonunda qazanam kədər,
Özünə öyrətmə məni bu qədər...

Məhəbbət alovu sönə də bilər,
Qayıdıb geriyə dönə də bilər...
Qalxıb zirvələrdən enə də bilər,
Bu eşqə inamım gedərsə hədər,
Özünə öyrətmə məni bu qədər...

Salma el-obanın dilinə məni,
Döndərmə xar olan gülünə məni,
Vermə, ayrılığın yelinə məni,
Demə ki, beləymiş bu tale, qədar.
Özünə öyrətmə məni bu qədər...

Çəkə bilməsəm də gözdən, gözümü,
Həsrətin qoynuna atıb özümü,
Çalışım söndürüm yanan közümü,
Sevsə də Rahilə səni bu qədər,
Özünə öyrətmə məni bu qədər.

AĞLAYIRSAN A MEHMAN

Müğənni Mehman Ovçuyevə

Ayrılıbdı, zirvələrdən enən deyil,
Həsrətində gözlərində sönən deyil,
Gedənlərin gedib geri dönən deyil,
Cöşub-daşıb, çağlayırsan, a Mehman,
Zümzümənlə ağlayırsan, a Mehman.

Baxça bağda tər çiçəklər açmayır,
Səhər tezdən günəş kimi saçmayır,
Çox çağırma o yanına qaçmayır,
Ürəyini dağlayırsan, a Mehman,
Avazınla ağlayırsan, a Mehman.

Tənha qaldın belə cavan yaşından,
Unutmursan, atanmırsan başından,
Təsəlli al qara mərmər daşından,
Qəm çələngi bağlayırsan, a Mehman,
Mahnılarla ağlayırsan, a Mehman.

Gah zildəsən, gah bəmdəsən, bilirəm,
Gözü yaşlı nə dəmdəsən bilirəm,
Toyda, yasda hey qəmdəsən, bilirəm,
Qüssə qəmi tağlayırsan, a Mehman,
Nəğmələrlə ağlayırsan, a Mehman.

NECƏ DANIM

Göz yaşımla dərya doldu,
Belə keçib anım, Allah,
Gülüm vaxtsız niyə soldu,
Lap üzmüşəm canım, Allah!

Dərd, dərd üstən tapır məni,
Daglayır hey, qəm sinəmi,
Eşit nolar ah-naləmi,
Çox qaralıb qanım, Allah!

Qəm yeyibdi, bu ömrümü,
Edib qara, hər günümü,
Göyə sovrub bax, külümü,
Qoyma məni yanım, Allah!

Rahiləyəm, dözmür ürək,
Puç oldu hər arzu dilək,
Qəlbimdə var bircə istək,
Onu necə danım, Allah!

AD GÜNÜN MÜBARƏK

Günəşə sən çıxma, mən çıxım deyən,
Çiçəyim ad günün, mübarək olsun.
Sevgi budaqların açıb bəzəyən,
Ləçəyim, ad günün, mübarək olsun.

Mənəm o eşqindən yanan, kükrəyən,
Hər acı sözündən küsən, inciyən.
Bal dili yox deyən, qəlbi gəl deyən,
Ürəyim, ad günün, mübarək olsun.

Parlayan ulduz tək zülməti bəzə,
Qəlbin bir aynadır çəkilib üzə.
Göydəki mələksən bəxş oldun bizə,
Mələyim, ad günün, mübarək olsun.

Kimdi Rahiləni sevən, anlayan,
Hərdən bir can deyib, mənlə yaşayan,
Sveta adında bir qəlb daşıyan
Bəbəyim, ad günün, mübarək olsun.

AD GÜNÜMDÜ

Qocalıram, demirəm mən,
Saçlarıma düşsə də dən.
Xatirəyə dönüb gedən,
İllər uzaq bir ünümdü...
Bu gün mənim ad günümdü.

Doymayıbdı hələ ürək,
Qabaqdadı arzu-dilək, ,
Qocalmasın həvəs gərək,
Doğum günüm,şad günümdü,
Bu gün mənim ad günümdü.

Xoş gələcək qışım yazım,
Dillənəcək telli sazım,
Ay Rahilə necə yazım?
Taleyimnən dad günümdü.
Bu gün mənim ad günümdü.

MƏNİ ATAN OĞLAN

Dərdli-dərdli süzdün məni,
Məni atıb, gedən oğlan,
Baxışınla üzdün məni,
Məni atıb gedən oğlan.

Mən sevgində əzəl oldum,
Sən sevməyən gözəl oldum,
Tapdaladın xəzəl oldum,
Məni atıb, gedən oğlan.

Sinəmdədi həsrət dağım,
Dilimdədi acı-ağım,
Viran olub sevgi bağım,
Məni atıb, gedən oğlan.

Can evimə sən od saldın,
Ömrümü də yarı aldın,
Mənlə idin, kimlə qaldın?
Məni atıb, gedən oğlan.

Eşq yolunda azan sənsən,
Ayrılığı yazan sənsən,
Əhdimizi pozan sənsən,
Məni atıb gedən oğlan.

Rahiləyəm nə qazandım?
Gecə gündüz səni andım,
Dərd odunda gizli yandım,
Məni atıb, gedən oğlan.

QOŞA BULAQ

Ellər gələr qəm eyləmə,
Ey çağlayan Qoşa bulaq,
Zümzüməni kəm eyləmə,
Süzül-süzül Qoşa bulaq.

Süzülürsən uca dağdan,
Yollar keçir soldan, sağdan,
Xəbər söylə o xoş çağdan,
Süzül-süzül Qoşa bulaq.

Ətrafından çiçək üzüm,
Zümzümənə nəğmə düzüm,
Hər damlanı baltək süzüm,
Süzül-süzül Qoşa bulaq.

Dağ başına çən gələndə,
Həsrət bizə tən gələndə,
Arada bir mən gələndə,
Süzül-süzül Qoşa bulaq.

Gözəl qızlar sənəyinə,
Ormeşənin diləyinə,
Rahilənin ürəyinə,
Süzül-süzül Qoşa bulaq.

QALIB

Yaman öyrətmisən məni özünə,
Gözlərim bir parça lövhədə qalıb.
Taqətim qalmayıb artıq dözümə,
Sevincim, həsrətdən, kölgədə qalıb.

İnan ki, dag çəkir mənə bu həsrət
Yarı canım, sənin yanında qalıb..
Sənsiz öz evimi sanıram qürbət,
Gedib yarım, başqa ölkədə qalıb.

Sənsiz qəm çəkməkdən dözümsüzəm mən
Doğru ümüdlərim bəlkədə qalıb
Qəlbim parça-parça, özümsüzəm mən
Qəlbim div qəlbi tək külçədə qalıb

DEYİL

Dizim üstə düşən damcı,
Gözüm yaşı, yağış deyil.
Alın üstə olan qırış,
Kədər, qəmdi, naxış deyil.

Ürəyimdən ah süzülür,
Kipriyimdən yaş üzülür,
Baxışıma qəm düzülür,
Bu baxış o, baxış deyil.

Sevinc deyil mənə qaçan,
Günəş kimi şölə saçan,
Sinəm üstə şırım açan,
Nə kotandı, nə xış deyil.

SƏNİ SEVMƏK ÖLÜMDƏN DƏ BETƏRMİŞ

Əl uzatdım əllərinə çatmadım,
Sevincini sevincimə qatmadım,
Bircə gündə fikirimdən atmadım,
Nakam sevgi ürəklərdə hədərmiş,
Səni sevmək ölümdən də betərmiş.

Gözlərimdə duman oldun çən oldun,
Cavan yaşda saçlarıma dən oldun,
Ayrılığa səbəb yenə sən oldun,
Sənin sevgin elə bura qədərmiş,
Seni sevmək ölümdən də betərmiş.

Kədər yaşın oydu mənim gözümü,
Lağa qoydu hər eşidən sözümü,
Danlayıram gecə gündüz özümü,
Yalan olub, eşq də gəldi gedərmiş,
Səni sevmək ölümdən də betərmiş.

Sənə verdim öz könlümü əlimlə,
Qəlbdən sevdim, sevmədim ki, dilimlə,
Yaşatsan da hər an məni zülümlə,
İnanmazdım mənə sevgin bitərmiş,
Səni sevmək ölümdən də betərmiş.

Keç desələr mən keçərəm hər nədən,
Bu dün olan həqiqətdən, kölgədən,
Bircə dənə keçəmmərəm sevgidən,
Səni sevmək Rahiləyə qədarmiş,
Səni sevmək ölümdən də betərmiş.

TÖHFƏ

Yaradan elə bil əsər yaradib,
Açilib onumdə bir yeni lövhə,
Ipək tellərindən əsər yaradib,
Çiyninin üstünə səribdi Töhfə.

Sanki yanaqları qızıldan zərdi,
Boğazı şirmayı təzədi-tərdi,
Sinəsi ağappaq, sanki mərmərdi,
Hamıya sözünü deyibdi Töhfə.

Dodağı xurmadı, ləbləri baldı,
Rahilə baxdıqca xəyala daldı,
Bu şerin ilhamın bil səndən aldı,
Gözəllik adını alıbdı Töhfə.

YUXUMA GƏLMİŞDİ MƏNİM

Elə bil, ayrılıq göyə uçmuşdu,
Gəlişi, yuxuma işıq saçmışdı,
Əlini, qolunu, mənə açmışdı,
Yox idi həyatda kədərim, qəmim,
Bu gecə yuxuma gəlmişdi mənim.

Çəmənə çiçəkdən xalı da sərdik,
Meyvələr yetirən bağı da gördük,
Tikanlı kollardan itburnu dərdik.
Mənə qonaq idi könül həmdəmim,
Bu gecə yuxuma gəlmişdi mənim.

Dedim bu yuxunun sonu olmaya,
Küləklər sevgiyi, eşqi yolmaya,
Ayrılıq yaşıda gözə dolmaya.
Qəlbimdən əbədi həsrət silənim,
Bu gecə yuxuma gəlmişdi mənim.

Röyalar çin olur, bilmə ki, boşdu.
Yuxuya nəğmələr şeir də qoşdu,
Rahilə, bu gecə necədə xoşdu,
Qovuşduq qalmadı arzum diləyim,
Bu gecə yuxuma gəlmişdi mənim.

BAXMA MƏNƏ

Baxışın məni çaşdırır…
Sən uzaqdan baxma mənə.
Odlandırır, alışdırır,
Sən uazaqdan baxma mənə.

Çox çətindir həyat yolu,
Oldu nədən sevda qulu?…
Gözün nəmlə, yaşla dolu,
Sən uzaqdan baxma mənə.

Yanağına xal düzdürüb,
Ürəyimi sən üzdürüb,
Gözlərini hey süzdürüb,
Sən uzaqdan baxma mənə.

Gəl canımı alma belə,
Eşqimizi salma dilə,.
Dönüb geri gülə-gülə,
Sən uzaqdan baxma mənə.

DÜŞÜB

Düşmən tutub oylaqları,
Talan edib yaylaqları,
Qəhər boğub bulaqları,
Elim-obam, dara düşüb.

Görünməyir ocaq, tüstü,
Uçuq evin qalıb büstü,
Boş qalıbdı bulaq üstü,
Elim-obam, hara düşüb?

Kəndimizin adı qalıb,
Saf suların dadı qalıb,
Doğma itib yadı qalıb,
Elim-obam, tora düşüb.

Avazında qəm bəstəyəm,
Vətənsizəm bax xəstəyəm,
Həsrətindən can üstəyəm,
Elim-obam, hara düşüb?

Rahilə ah zarı biçib,
Kədər qüssə suyu içib,
Ağlamaqdan daha keçib,
Elim-obam, dara düşüb.

YADA SALIRSANMI?

Səhər-səhər tezdən durub,
Gül baxçana baxırsanmı?
Tər güllərin ləçəyindən,
İpək telə taxırsanmı?

Seyr edirsən baxça-bağı?
Gəzirsənmi solu-sağı
Düşünürsən ötən çağı?
Məni yada salırsanmı?

Səni hicran dara çəkir?
Xəyalların hara çəkir?
Həsrət bizə ara çəkir.
Söylə dəli olursanmı?

Rahilədi can sirdaşı,
Boğur məni hicran yaşı.
Gəl sevgidə olma naşı,
Nələr çəkdim, bilirsənmi?

ÖLÜR SƏNSİZ

Yarın düşüb sənsiz xəstə,
Şeirləri nəğmə, bəstə,
Gəl, yetiş sən son nəfəstə,
Deyər,-daha yaşa mənsiz,
Yarın köçür, ölür sənsiz.

Yola baxıb hey ağlayır,
Göz yaşları qəlb dağlayır,
Kədər gizlər, qəm bağlayır,
Deyər,-yaşa daha mənsiz,
Yarın köçür, ölür sənsiz.

İl üstünə il qaladı,
Yaşı axdı, üz yaladı,
Hicran bəxti tək daladı,
Deyər,-yaşa daha mənsiz,
Yarın köçür, ölür sənsiz.

Sevgi sizi yaraladı,
Canı-candan araladı,
Şırımladı paraladı,
Deyər,-daha yaşa mənsiz,
Yarın köçür, ölür sənsiz.

DOLANIRSAN

Sən gəzirsən dərd qoynunda,
Varlığını dana-dana.
Oynayırsan qəm oynunda,
Dolanırsan, yana-yana.

Bilirsənmi, elin köçüb,
Güllər solub, bülbül uçub,
Qəriblik də bizi qucub,
Dolanırsan, qana-qana.

Dağları çən, duman alıb,
Ürək əsib niskil qalıb,
Doğma eli yada salıb,
Dolanırsan, dona-dona.

Gözlərimdən yaş ələdi,
Yanağına nəm bələdi,
Ay Rahilə bax belədi,
Dolanırsan sına-sına.

AXTARIRAM YENƏ İTƏN İLLƏRİ...

Payız da simama bir əsər çəkib,
Axır yanağımdan inci selləri,
İpək tellərimə ağ dəni əkib,
Axtarıram yenə itən illəri.

Qəmli xəyallardan ayırır məni..
Göydə uçub gedən durna səsləri,
Göz yaşım həkk edir yanaqlarıma,
Hər ötən günləri, ötən illəri.

Gəlib keçdi, ona həsrətlə baxdım,
Sakit bir çay kimi yanından axdım,
Bax belə gətirib taleyim bəxdim,
Axtardım ömrümdən bitən illəri.

Bükübdü boynumu bənövşə kimi.
Sındırdı dağıtdı bir şüşə kimi,
Qayıda xoş anlar bir nəşə kimi,
Gəzməyim heç sona yetən illəri

BAXIŞLARIM

Baxışlarım gözlərini ovlasın,
Kədər, qəmi gözlərindən qovlasın,
Gəl görüşək deyə səni tovlasın,
Baxışlarım baxışından nur çəkə.

Sevinc yaşı gözlərindən süzülə,
Yuvarlanıb al yanağa düzülə,
Axıb-axıb dodaqlardan üzülə
Baxışlarım gözlərindən yaş tökə.

Ürəyim də ürəyinə bənd ola,
Ayrılığa qovuşmamış fənd ola,
Yaşamağa bir balaca kənd ola,
Dağlarından qartal uça, sar səkə.

Yarın baxa gözlərinin içinə,
Gözəllikdən qəlb dözməyə, keçinə,
Qoşa gedək, dağ qoynunda biçinə,
Təbəssümün çəmənliyə gül əkə.

Sevgi bağın çiçəkləyə, gül açа,
Məhəbbətin ürəyimdə dil açа,
Rahilə də sevənlərə qol açа,
Sözləriylə ürəklərdən qəm sökə.

AZƏRBAYCAN ƏSGƏRİ

Unutma sən, yaşıl orman, meşəni,
Çöl-çəməni, gül çiçəkli gülşəni,
Kol dibində qalan tər bənövşəni,
Keç hücuma, seçmə məkan səngəri,
Sənə qurban, Azərbaycan əsgəri.

Baxmaq olmur anaların üzünə,
Dayaq olun mərd igidlər sözünə,
Nur çiləyin Xocalımın gözünə,
Keç hücuma,seçmə məkan səngəri,
Sənə qurban Azərbaycan əsgəri.

Siz də düşün Mübarizin yoluna,
Vətən üçün gedirəm yaz qoluna,
Sarıl, dırman ağacına koluna,
Keç hücuma,seçmə məkan səngəri,
Sənə qurban Azərbaycan əsgəri.

Qan ağlayır "Qara gəlin" qayası,
Qəbir daşı qucur şəhid balası,
Bu hayıfın oki sonu olası
Keç hücuma,seçmə məkan səngəri,
Sənə qurban Azərbaycan əsgəri.

Qarabağı azad görə biləydim,
Sevincimi el-obayla böləydim,
Rahiləyəm, Vətənimdə öləydim,
Keç hücuma,seçmə məkan səngəri,
Sənə qurban Azərbaycan əsgəri.

YÜRÜŞ EYLƏYİN

Qarabağdan qaldıq uzaq aralı,,
Vətən həsrətindən ürək yaralı,
Ana gördüm, bala daglı, bəlalı,
Göstər hünərini ay vətən oglu,
Bir yürüş eyləyin o yurda dogru.

Zəngilanım düşmən əlində talan,
Öz ana yurdundan zorla qovulan,
Biz olduq yurdundan aglar ayrılan ..
Göstər hünərini ay vətən oglu,
Bir yürüş eyləyin o yurda dogru.

Ayrı düşdük doğma el qucağından,
Həsrət qaldıq isti od ocağından,
Qaldıq soyuq çadır bucaqlarında,
Göstər hünərini ay vətən oglu,
Bir yürüş eyləyin o yurda dogru.

dıgalar gəzirlər dogma yurdumda,
At oynadır o cənnət, oylağında,
Büsat qurub. kef edir yaylağında,
Göstər hünərini ay vətən oglu,
Bir yürüş eyləyin o yurda dogru.

Rahilə dözməyir belə hicrana,
Ağdam tək neçə yurd qalıbdı odda,
Gəl yetişək dada ,qalxın ayaga,
Göstər hünərini ay vətən oglu,
Bir yürüş eyləyin o yurda dogru.

QADAN ALIM

Tək səni sevmək üçün,
Gəlmişəm bu dünyaya.
Sevinib için-için,
Yar olacam bu paya,
Sevdim səni a zalım,
Gəl sənin qadan alım.

Məhəbbəti edək car,
Mən sənə sən mənə yar,
Bu gün verək biz qərar,
Mən şirinin sən balım.
Gəl sənin qadan alım.

Bir yetişək bir dəyək,
Bir sinədə bir ürək,
Görənlərə biz deyək,
Sevgidi dövlət malım,
Gəl sənin qadan alım.

Gəl bir tutaq əl-ələ,
Gedək bizim yerlərə,
Gəlibdir könlüm dilə,
Olum sənin maralin,
Gəl sənin qadan alim.

Al könlümü ələ sən,
Sevgi nədir biləsən,
Yənə mahni istəsən,
Sən oxu mən də yazim,
Gəl senin qadan alım.

Kimdən alim həvəsi,
Sirin olsun nəfəsi,

Rahilənin nəğməsi,
Dinləsin hər mahalim,
Gəl sənin qadan alim.

GƏLİN

Bu gün gəlin köçürsən,
Sevincdən don biçirsən,
Sevgiyə and içirsən,
Get səni yarı, ay gəlin,
Yarınla qarı, ay gəlin.

Dərdə qəmə acı ol,
Sevdiyinin tacı ol,
Baldızına bacı ol,
Get səni yarı, ay gəlin,
Yarınla qarı, ay gəlin.

Qaynata sevinci ol,
Qaynanaya inci ol,
Hər işdə birinci ol,
Get səni yarı, ay gəlin,
Yarınla qarı, ay gəlin.

SƏNƏ GƏLƏCƏM

Kəssədə yolumu qışın tufanı,
Dərdimi boğmağa, sənə gələcəm,
Unudub hər şeyi, zamanı, anı,
Kədəri qovmağa, sənə gələcəm.

Sevincin mənimlə daha yoxudu,
Dərdindən dərdlərim qüssə qoxudu,
Gözlərin gözümə nəmi toxudu,
Dərdimi qovmağa, sənə gələcəm.

Özümü unudub sənə qaçaram,
Həsrət qəfəsindən sizə uçaram,
Gizlimi sirrimi sənə açaram,
Kədəri qovmağa, sənə gələcəm.

Yaşımı yaşına qata bilmədim,
Qəm qüssə yükümü ata bilmədim,
Nə gecə nə gündüz yata bilmədim,
Qüssəmi qovmağa, sənə gələcəm.

Qocalıq qışından gəlir sorağım,
Zəifdi gözümdə yanan çırağım,
Tökülür saralmış ömür yarpağım,
Möhnəti qovmağa sənə gələcəm.

Rahilə, eşqini ayrılıq biçdi,
Ömründən kədərin cığırı keçdi,
Bilirsən, sevgisiz həyatda heçdi...
Həsrəti qovmağa, sənə gələcəm.

ARASINDAYAM

Ulduzlu səmaya baxıb yatsam da,
Yuxuda arzuya gedib çatsam da,
Dərdimi qəmimi oda atsam da,
Sonda torpaqla daş, arasındayam.

Xoşbəxtlik qismətim olmayıb əzəl,
Uzaqdan baxana olmuşam gözəl,
Ovutmaz məni nə şeir, nə qəzəl,
Əzəldən ahla yaş, arasındayam.

Keçibdi ömrümün baharı, yayı,
Tələsən bilmədim ildi, ya ayı,
Olmadı taleyim xoşbəxtlər tayı,
İndi payızla qış, arasındayam.

Sevincli olmadı gözümün yaşı,
Özümdən bəxtəvər sandım mən daşı,
İtirsəm də dərddən ağılı, başı,
Elə bil ağılla-huş, arasındayam.

Mən özüm özümü didib yaxsam da,
Bulud tək toquşub işıq saçsam da,
Günəş tək gah çıxıb, gah da batsam da,
Sonda göz ilə qaş, arasındayam.

DÖNÜB

Sevənlərdə günah yoxdu,
Məhəbbətin düzü dönüb,
Yalanlara tez inanıb,
Sevdiyindən üzü dönüb.

Başqasını görüb kalan,
Sevgisini çaşbaş salan,
Xəyalları göydə olan,
Qınamayın, gözü dönüb.

Sevdiyini tez danırsa,
Xəyanətlə o yanırsa,
Dünyanı belə qanırsa,
Sönüb, külə özü dönüb.

Ay Rahilə, düşmə aha,
Deyib batma sən günaha,
Sevdiyin də sevmir daha,
Verdiyi o sözü, dönüb.

MƏNİM GÖZLƏRİMLƏ BAX

Baxışları ürəyimə köz salır,
İncimirəm, təbəssümü can alır,
Gecə gündüz xəyalımda o qalır,
Yarım mənim gözlərimdə gözəldi.

Mən sevmişəm onu daim, əzəldən,
O seçilir neçə-neçə gözəldən,
Bax gözəldi payızdakı xəzəldən,
Yarım mənim gözlərimdə gözəldi.

O dağlarda, zirvələrdə qarımdı,
Yanar odda ocağımdı, qorumdu,
Candaşımdı, o vəfalı yarımdı,
Yarım mənim gözlərimdə gözəldi.

Bax Rahilə yarım əlvan çiçəkdi,
Budaqlara sarılmış bir ləçəkdi,
Duruşu da, qəmzəsi də göyçəkdi,
Yarım mənim gözlərimdə gözəldi.

HƏSRƏT

Yalan saldı aramıza,
Duz ələdi yaramıza,
Danışdı hey qaramıza,
Ürəyimdə qalan həsrət.

Yaman girdi qəstimizə,
Su çilədi üstümüzə,
Baxdı güldü tüstümüzə,
Məni oda salan həsrət.

Yaş ələndi gözlərimdən,
Kədər yağdı sözlərimdən,
Taqət getdi dizlərimdən,
Etdi məni talan həsrət.

Rahiləyi dərd ələdi,
Vaxtsız sevgi silkələdi,
Məni dərdə çox bələdi,
Ürəyimə dolan həsrət.

GÜMANDI SEVGİ...

Həsrətin qorxudur, kəsir önümü,
Ayrılığın, qara edir günümü,
Mən necə verəydim sənə könlümü?
Xəyalımda qəmdı, gümandı, sevgi.

Baxıb heç vurulma, qara gözə sən,
İnanma deyilən, yalan sözə sən,
Sevib düşmə oda, yanar közə sən,
Məhəbbət yaradan tufandı, sevgi.

Damla-damla axdı, töküldü, bitdi,
Yaş kimi yanaqdan süzüldü, itdi,
Çözüldü, çözüldü yox oldu, getdi,
Yolumda olan çən, dumandı, sevgi.

Həqiqi sevginin üzünə gül, sən,
Onda bilərsən ki, sevənə,- gülsən,
Rahilə, bir şeyi anlayıb, bil, sən,
Sonun da hər zaman yalandı, sevgi.

GÖZƏLLƏRİN GÖZƏLİ

De, bilim haralısan ?
Dağların maralısan!
Sevgidən yaralısan...
Görməmişəm sənin kimi gözəli,
Sən elimin gözəlisən, ay gözəl?
Gözəllərin gözəlisən, ay gözəl.

Dağların ağ qarısan
Bağçaların barısa,
Görən kimin yarısan?
Görməmişəm sənin kimi gözəli
Sən elimin gözəlisən, ay gözəl?
Gözəllərin gözəlisən, ay gözəl.

Dodaqların ballıdı,
Gül yanağın allıdı,
Ağ buxağın xallıdı,
Görməmişəm sənin kimi gözəli,
Sən elimin gözəlisən, ay gözəl?
Gözəllərin gözəlisən, ay gözəl.

Hərdən dur gəl bizə sən,
Nazla süzə -süzə sən,
Gəlmiyəsən gözə sən,
Görməmişəm sənin kimi gözəli,
Sən elimin gözəlisən, ay gözəl?
Gözəllərin gözəlisən, ay gözə.

XOŞBƏXT OL AY GƏLİN

Nazlı-nazlı gəl, ay gəlin,
Yar könlünü al, ay gəlin,
Qolun olsun boyunbağı,
Yar boynuna sal, ay gelin,
Səni xoşbəxt ol, ay gəlin.

Toy şamlarin düzən kimi,
Şərbətləri süzən kimi,
Qaş altindan süzən kimi,
Ürəklərə dol, ay gəlin,
Səni xoşbəxt ol, ay gəlin.

Şux görsənən boyundu,
Qurban olan qoyundu,
Bu gün sənin toyundu,
Asta qaldır qol, ay gəlin,
Səni xoşbəxt ol, ay gəlin.

Sən yarının gözəlisən,
Gözəllərin qəzəlisən,
Sən bir elin gözəlisən,
Sənə yaxşı yol, ay gəlin,
Səni xoşbəxt ol, ay gəlin.

SEVDİM DƏLİ KİMİ

Gəl, ömrümün ləli kimi,
Gəl, məhəbbət seli kimi,
Sənsiz yaşaya bilmirəm,
Səni sevdim dəli kimi.

Ürəyimi paralama,
Sevən qəlbi yaralama,
Gəl özündən aralama,
Səni sevdim dəli kimi.

Həyatımı dar eyləmə,
Ayrılığa yar eyləmə,
Qara saçı qar eyləmə,
Səni sevdim dəli kimi.

Qəm-qüssəyə bələnərəm,
Dərd şanından ələnərəm,
Səndən sevgi dilənərəm,
Səni sevdim dəli kimi.

YARIM ƏLAC SƏNDƏDİMİ?

Külək məni sovurubdu,
Od közümdə qovurubdu,
Paralayıb hey ovubdu,
Yarım, əlac səndədimi?

Xəstəlik də çox seylədi,
Qovdu məni hey teylədi,
Tamaşa et bax, neylədi,
Yarım, əlac qəmdədimi?

Zirvələrdə qara döndüm,
Gür ocaqda qora döndüm,
Ayrılmadım yara döndüm,
Yarım, əlac səndədimi?

Yollarında daşın olum,
Kipriklərin, qaşın olum,
Gözlərində yaşın olum,
Yarım, əlac nəmdədimi?

Rahiləyəm, sən olanım,
Gəl, başına mən dolanım,
Atəşinə mən qalanım,
Yarım, əlac məndədimi?

SEVİRƏM SƏNİ

Ayrıldın ürəkdə qaladın ocaq,
Sənsizlik bilirəm məni sıxacaq,
Gözlərim sən gedən yola baxacaq,
Mən niyə bu qədər sevirəm səni?

Düşünmə ömrümdə olan həvəssən,
Sən məni yaşadan təmiz nəfəssən,
Qəlbimi saldığın dar bir qəfəssən,
Mən niyə bu qədər sevirəm səni?

Sənsiz dərd çəkirəm, üzüm də gülmür,
Qışım da getməyir, yazım da gəlmir,
Sənə olan eşqim heç zaman ölmür,
Mən niyə bu qədər sevirəm səni?

Rahilə əbədi izləyir səni,
Həsrətdən, hicranan gizləyir səni,
Hər zaman hər yerdə gözləyir səni,
Mən niyə bu qədər sevirəm səni?

AYRILIQIN ACISI

Əfsanəvi bir cənnətdə doğuldum,
Bal dadırdı, torpağı da, daşı da.
Yad ocağın baharından, yazından,
Gözəl idi öz yurdumun qışı da.

Baxçamızin barı şirin bar idi,
Dağlarımız ağ örpəkli qar idi.
Üzü gülər el-obamız var idi,
Çatılmırdı heç birinin qaşı da.

Əziz idi hər kişisi, qadını,
Uca tutdum öz yurdumun adını.
Kəndimizin duzlu şornun dadını,
Verə bilmir bu yerlərin aşı da.

O yerlərin ayrılığı can sıxır,
Könlüm kövrək, baxışıyla hey baxır
Gölə dönüb, şəlalə tək sel axır,
Dayanmayır gözlərimin yaşı da.

Bülbül bilib salmayın siz qəfəsə,
Gül eşqindən orda gəlləm həvəsə.
Hər kim mənə yurdumnan xoş söz desə,
Diz çökərəm, lap əyərəm başı da.

SƏNİN

Bir ulduzam səmalarda,
Naxışına düşüm sənin.
Bir çiçəyəm səhralarda,
Yağışına düşüm sənin.

Gözlərim baxa gözünə,
Nəfəsim dəyə üzünə.
Inanma özgə sözünə,
Ağuşuna düşüm sənin.

Ömrümün payız çağında,
Gəzirəm dərd yaylağında.
Yandım eşqin ocağında,
Göz yaşına düşüm sənin.

Sevgimizin otağında,
Bülbül ollam gül bağında.
Ölləm sənin qucağında,
Qarğışına düşüm sənin.

DAĞLAR MƏNƏN İNCİYİBDİ

Zirvəsində çən görünür,
Dağlar mənən inciyibdi,
Gözlərində nəm görünür,
Dağlar mənən inciyibdi.

Yay canlanır yaylaqları,
Coşub-çağlar bulaqları,
Səslər bizi oylaqları,
Dağlar mənən inciyibdi.

Tez-tez ora gedəmirəm,
Gözəlliyi görəmirəm,
Mən dağlarsız güləmirəm
Dağlar mənən inciyibdi.

Rahilə də bir yol seçib,
Bulaqların suyun icib,
O vədədən çox vaxt keçib,
Dağlar mənən inciyibdi.

DURSUN OXUYANDA

Sevənlərə həmdəm olur,
Gözlərin də yaş, nəm olur,
Həzin gələn bir qəm olur,
Dursun mahnı oxuyanda.

Ötən günlər düşər yada,
Candan itər kədər, qada,
Sanki salır bizi oda,
Dursun mahnı oxuyanda.

Ürəyimi didir qəmi,
Hərdən zili, hərdən bəmi,
Avazında var məlhəmi,
Dursun mahnı oxuyanda

Nəğməsində niskil ara
Qəmli səsi çəkir dara
Xoş avazı dərdə çara,
Dursun mahnı oxuyanda

Süzülsün qoy pərdə-pərdə,
Dolsun qəlbə nəğmələr də,
Dincəlir inan ürək də,
Dursun mahnı oxuyanda.

Vaxtsız düşdü saçıma dən,
Bu çəkdiyim qəm əlindən,
Dərddə qaçır sanki məndən,
Dursun mahnı oxuyanda.

Həvəsləndim gəldim coşa,
Arzularım, qoşa-qoşa,

Ürək deyir yüz il yaşa,
Dursun mahnı oxuyanda.

Ay Rahilə qalma uzaq,
Vurar səni soyuq, sazaq,
Qələm götür şeir yazaq,
Dursun mahnı oxuyanda.

ATA BİLMƏDİM

Süzdürüb gözlərin keçdi yanımdan,
İşvəsi, qəmzəsi, keçdi qanımdan,
Kipriyi ox kimi keçdi canımdan
Çəkilib yuxum da yata bilmədim .
Sevdim o gözəli, ata bilmədim.

Bütün aləm sanki üstümə endi,
Arzular, istəklər, qüssə geyindi,
Ölürəm dərdindən-nə edim indi?
Məndən uzaq qaçdı cata bilmədim,
Sevdim o gözəli, ata bilmədim.

Həsrətə, hicrana toxudu məni,
Sanki vərəq-vərəq oxudu məni,
Solmuş bir çiçəktək qoxudu məni
Ətrimi, ətrinə qata bilmədim,
Sevdim o gözəli, ata bilmədim.

Qəlbimdə ağrıya dönür həsrəti,
Alovsuz alışır, sönür həsrəti,
Rahilə, gözümdə illər həsrəti
Mən onun əlindən tuta bilmədim
Sevdim o gözəli, ata bilmədim.

SEVGİ

Onu uca dağ bilirdim,
Unudulmaz çağ bilirdim,
Bol bəhrəli bağ bilirdim,
Sanırdım ki, baldı sevgi.

Ah naləli dillər kimi,
Şəlaləli, sellər kimi,
Tər qönçəli güllər kimi,
Al-əlvandı, aldı sevgi.

Düşünmədim varı, pulu,
Mən olmuşam eşqin qulu,
Səadətə gedən yolu,
Tutub məndən aldı sevgi.

Ağlımızı başdan alan,
Ağzımızı düzə salan,
Göz yaşı tək donub qalan,
Qəlbimizdə xaldı sevgi.

Xoşbəxtliyi çox çəkmədi,
Üzünədə bəxt gülmədi,
Rahilə də heç bilmədi,
Onu dərdə saldı sevgi.

BAHAR SEVGİMİZ

Həsrətli baxışın sevinci olmur,
Gözlər də hey dolur bulaqlar kimi,
Toxunsan, kipriyə süzülüb axar,
Gözyaşı gözlərdən bulaqlar kimi.

Nədəndir bu qədər çəkirik hicran?..
Biri-birimizə qovuşmaq üçün,
Nədəndir istərik elə hər zaman,
Bir sevgi ömürü yaşamaq üçün.

Bahar sevgisidi bax, bu sevgimiz,
Yağışdan, yağmurdan qaça bilmirik,
Dilə gətirərək sevdiyimizi,
Ancaq ürəymizi aça bilmirik?!

Bu həsrət, bu niskil saracaq bizi,
Ayrılıq odunda qovrulmaq üçün,
Rahilə saxlayaq gəl sevgimizi,
Atəşdən, alovdan qorunmaq ücün.

SEVGİDƏN NƏYİ PİSDİ?

Mən sevgi istəmirəm həyatımda kimsədən,
Sevgidi, məhəbbətdi,-bunlar ötəri hissdi.
Səni mən cox istərəm deyən desin ürəkdən,
Soylə, belə istəyin, sevgidən nəyi pisdi?..

Mənə qəlbən baglanib, ölüncə istəyənin,
Nə istəyi tükənər, nə də olan sevgisi..
Insan, insan olaraq duysa əgər niyyətin
Söylə, belə istəyin, sevgidən nəyi pisdi?..

Sevilmədinsə əgər Rahilə, sən ürəkdən,
Puç oldu arzum demə, axı bu necə hisdi?
Bəlkə elə sevgisiz.. kimlərəsə gərəksən,
Söylə, belə istəyin, sevgidən nəyi pisdi.?

TƏBİƏT

Hər tərəf al-əlvan çiçəklənibdi,
Açılan çiçəklər ləçəklənibdi,
Gəlintək bəzənib göyçəklənibdi,
Üzünə salıbdı tülü təbiət.

Gül-çiçək çəmənin gül naxışıdı,
Gözəl tək aləmə bir baxışıdı,
Göylərdən bu yağan nur yağışıdı,
Düzübdü hər yana gülü təbiət.

Rahilə aləmə sən də nəzər sal,
Baxıb gözəlliyə ondan ilham al,
Bulaqlar başında, nə gözəl bu hal,
Alıbdır qoynuna eli təbiət.

SİRDAŞIM

Taleyimdə gül-çiçəktək açmısan,
Günəş kimi ömrümə nur saçmısan,
Çətin anda söz söhbətdən qaçmısan,
Ay həyat yoldaşım, sirrim, sirdaşım.

Sən çox mehribansan, gülümsər üzün,
Hər yerdə, hər zaman deyilər sözün,
Oğulu qızı çox sevirsən özün,
Ay həyat yoldaşım, sirrim, sirdaşım.

Ürəyimdən hər keçəni duyursan,
Dərd-qəmimi ilmələyib oyursan,
Ailəni dağ başına qoyursan,
Ay həyat yoldaşım, sirim, sirdaşım.

Rahiləyəm tanıyıram özümü,
Qəbul eylə, hər səmimi sözümü,
Mən tuturam sənə yarım, üzümü,
Ay həyat yoldaşım, sirim, sirdaşım.

GÖZƏL

Toy nişanlar yaraşığı,
Sən olubsan eşq aşığı,
Gözəlliyin gül naxışı,
Düzülübdü telə, gözəl,
Bənzəyirsən gülə gözəl.

Baxışların miyanədi,
Gülüşlərin şəlalədi,
Ala gözün piyalədi,
Sən düşübsən dilə, gözəl
Bənzəyirsən gülə gözəl.

Səni sevən daha çoxdu,
Gözəllikdə tayın yoxdu,
Kipriklərin sanki oxdu,
Yaraşıqsan elə, gözəl
Bənzəyirsən gülə gözəl.

Od ocaq tək alışırsan,
Sevgilərə qarışırsan,
Gözəllərlə yarışırsan,
Özün bilə-bilə, gözəl,
Bənzəyirsən gülə gözəl.

Ay Rahilə, nə izlərsən,
Sevib eşqin, nə gizlərsən,
Gözün yolda nə gözlərsən?
Könlüm gəlib dilə, gözəl,
Bənzəyirsən gülə gözəl.

XALÇAÇI QIZLAR

Arğacı, ərişi ömür yolunuz,
Naxışı, ilməsi həyat donunuz,
Xalı üstə gəzən incə qolunuz,
İlmə-ilmə naxış vurun a qızlar,
Xalılar toxuyun xalçaçı qızlar.

Hər ilmədə bir gözəllik nuru var,
Hər naxışda bir özəllik toru var,
İlmələrin.. ilmələnmə zoru var,
İlmə-ilmə naxış vurun, a qızlar,
Xalılar toxuyan xalcaci qizlar.

Toxunmuş gəbələr sanki çiçəkdi,
Açılıb butalar, ləçək ləçəkdi,
Xalçalar da sizin kimi göyçəkdi,
İlmə-ilmə naxış vurun, a qızlar,
Xalılar toxuyun xalçaçı qızlar.

Tarixlər yaşayır qədim naxışda,
Çiçək açır sanki yağan yağışda,
Bəzəkli gəlinə bənzər baxışda,
İlmə-ilmə naxış vurun, a qızlar,
Xalılar toxuyun xalçaçı qızlar.

Rahilə, xalçalar qədimdən gəlir,
Bunu hər kəs, qoca, cavanda bilir,
Çox sirri bilinmir, çox sözü demir,
Sirli-sirli naxış vurun, a qızlar,
Tarixi toxuyun xalçaçı qızlar.

G Ə L

Ay sevgilim görüşümə,
Gül-çiçəklər açanda gəl.
Ay üzünü bədirləyib,
Ulduz şölə saçanda gəl.

El gələndə yaylaqlara,
Qızlar enər bulaqlara,
Qulluq edib qonaqlara,
Güllər ətir saçanda gəl.

Hər yan yaşıl görünəndə,
Dağda duman sürünəndə,
Çəmən gülə bürünəndə,
Bülbül bağa uçanda gəl.

Günəş səhər boylananda,
Meh yerindən oyananda,
Çəmən şehlə yuyunanda,
Ürəkdən yar keçəndə gəl.

HİSSLƏRİMİ OYATMA

Qoy sağalsın ürəyimin yarası,
Hər gün onu təzələmə, qanatma,
Ayrılığın yoxdur başqa carəsı,
Sənlə bağlı hisslərimi oyatma.

Nə qazandın, söylə, mənsiz dünyada?
Nə bağladı, mənsiz səni həyata?
Bu vaxta tək heç düşdümmü mən yada?,
Sənlə bağlı hisslərimi oyatma.

Rahilənin yanır qəlbi sızlayır,
Gecə-gündüz icin-icin ağlayır,
Bilki sənə yenə ümid bağlayır,
Sənlə bağlı hisslərimi oyatma.

KƏDƏR DÜNYASINA APARDI MƏNİ

Astaca əsəndə bir şehli külək,
Sevinc budağından qopardı məni,
Bəlkə məni sandi gunahkar, mələk
Kədər dünyasına apardı məni.

Sevmə, pıçıldadı qulaqlarıma,
Düzüldü incilər yanaqlarıma,
Süzüldü göz yaşım dodaqlarıma,
Sevinc dünyasından qopardı məni

Daha xeyri yoxdu təsəllilərin,
Gözyaşı içində axıb gedirəm,
Ağı az, qarası çox bu həyatın,
Üzünə sadəcə baxıb gedirəm.

Kədər damarını elə tutmuşam,
Sevinc qapısını tuta bilmirəm.
Qüssə badəsini elə tutmuşam,
Dərdimi başımdan ata bilmirəm.

GÖRMÜŞƏM

Bu gün yolum düşdü Şəhid evinə,
Orda qara zülmət dalan görmüşəm,
Dərd içində qalan ana-bacılar,
Gözləri yollarda olan görmüşəm.

Qəmli gözlər bulaq olub, qaynayır,
Yazıq ana sanki toyda oynayır,
Körpələri şəhid kimdi qanmayır
Bir ocaq ömrünü talan görmüşəm.

Kədəri qaldırıb qüssə qoyurlar,
Yaraları soğan kimi soyurlar,
Ata-ana boyunlarnı əyiblər,
Orda insan qəlbi viran görmüşəm.

Körpə səsi çətin günə yol açar,
Tez boy atar zülmətə də nur saçar,
Qoruxmaz, düşmənin üstünə qaçar,
Mən Vətən qeydinə qalan görmüşəm

MƏNƏM SƏNSİZ

Qəlbi dərdlərlə yoğrulan,
Kədər odunda qovrulan,
Külü göylərə sovrulan
Bilirsən, o, mənəm sənsiz.

Ürəyə qubar bağlayan,
Şəklinə baxıb ağlayan,
Sevgisin gizli saxlayan,
Bilirsən, o, mənəm sənsiz.

Həsrət dağından enməyən,
Alışıb yanıb sönməyən,
Qəhərdən susub, dinməyən,
Bilirsən, o, mənəm sənsiz.

Kaman tək qəddi bükülən,
Gözündən yaşı tökülən,
Bağrının başı sökülən,
Bilirsən, o, mənəm sənsiz.

OYNA AY GÖZƏL

Oyna ay gözəl oyna,
Dəyməsin nəzər, oyna,
Bu gün sənin toyundu,
Qızlardan gözəl, oyna.

Baxçamızdan gül üzüm,
Telinə bir-bir düzüm,
Bu gün sənin toyundu,
Gəlim toyunda süzüm.

Tellərindi tül, gözəl,
Dərdi qəmi sil, gözəl,
Bu gün sənin toyundu,
Sən danışıb gül gözəl.

Əli xınalı gəlin,
Teli şanalı gəlin,
Bu gün sənin toyundu,
Elin maralı gəlin.

TÖKƏCƏM YARPAQLARIMI

Həsrətin veribdi göz yaşlarımı,
Saxlaram payızın qüssəsi kimi.
Saraldıb tökəcək yarpaqlarımı,
Don vurmuş güllərin dəstəsi kimi.

Dağılmır başımdan hələ duman-çən,
Bəlkə də bir daha, dönməyəcəksən,
Quruyub dodağım səni deməkdən,
Saralmış bağların püstəsi kimi.

Bu kədər, bu da mən, qoşa qalmışıq,
Bahardan ayrılıb qışa qalmışıq,
Gözdən sevinc qaçıb, yaşa qalmışıq,
Çarəsiz dərdlərin xəstəsi kimi.

Rahilə, könlünə sevinc gətirim,
Yaxın gəl, yolunda güllər bitirim,
Ürək ver, sirrimi sənə yetirim,
Ağlayan könlümün bəstəsi kimi.

QƏDRİNİ HARDAN BİLƏCƏK

Günəş olub səhər şəfəq saçmayan,
Çiçək olub çəmənlikdə açmayan,
Çəməlikdə şeh üstündə qaçmayan,
Yaylağın qədrini hardan biləcək?

Fındıqlıdan qayalığa keçməyən,
Dəryaz alıb şehli otu biçməyən,
Kəltənin də bulağından içməyən,
Oylağın qədrini hardan biləcək?

Yaz yerini şumlamayan, əkməyən,
Gen tarlanın zəmisini biçməyən,
El obanın zəhmətini çəkməyən,
Torpağın qədrini hardan biləcək?

Yağış olub torpağına hopmayan,
Orman gəzib rahatlığın tapmayan,
Budaqlardan çiçək kimi qopmayan,
Yarpağın qədrini hardan biləcək.?

Ay Rahilə, kənd-kəsəyi anmayan,
El dərdinə, kədərinə yanmayan,
Vətən eşqi, sevgisini qanmayan,
Növrağın qədrini hardan biləcək?

BİR VƏTƏN, BİR DƏ SƏN

Bir Vətən, bir də sən, bir də çiçəklər,
Eşqimi, sevgimi xəyala çəkər!
Cənubdan şimala əsən kuləklər
Ömür yarpağımı yolaraq tökər...
Eşqimi, sevgimi xəyala çəkər!

Asıldım göylərdən,-Yer ayağımda,
Yerdən ayağımı üzə bilmərəm.
Üzülsəm, - dunyada yox dayağım da,
Tekcə xəyallarda gəzə bilmərəm,
Yerdən ayağımı üzə bilmərəm!

Mənə çiçək topla, gozlə yolumu,
Qoy çiçək əzabım əlində qalsın..
Saxla həsrətimi, saxla sevgimi
Sən adda ürəyim Vətəndə qalsın.
Qoy çiçək əzabım əlində qalsın!

SƏNİ SEVƏN GÜNDƏN...

Sən qəlbimə işiq verən
Bir ümidin isığısan!
Mən məhəbbət divanəsi,
Sən məhəbbət aşiqisən!

Səni seven gündən mənim,
Od-ocağım alovlanıb
Pərvazlanıb könlüm eşqim
Qəlbimdə bir ruh oyanıb!

Səni sevən gündən bəri
Yaşamağa can atıram!
Əridirəm qəm kədəri,
Həsrətimə şən qatıram.

YARI GƏTİRİN

Baxıb gözlərinə sehirlənmişəm,
Məni məndən alan yarı, gətirin.
Həsrətinə elə bükələnmişəm,
Xəyala bağlayan yarı, gətirin.

Gözümü qapayıb düşüm sehrinə,
Düşüm sevgisinə, düşüm mehrinə,
Öyrənib yetişim, onun sehrinə,
Sinəmi dağlayan yarı, gətirin.

Həsrətindən ürək oda alışır,
Alovum odlanıb külə qarışır,
Ürək vəfasızla yenə barışır,
Siz mənə, ağlayan yarı, gətirin.

Mənimlə hey dağa, arana köçən,
Xəyalı yaxına, uzağa çəkən,
Ağrısı durmadan belimi bükən,
Gözümdə çağlayan yarı, gətirin.

Rahilə ahına, zarına gələm,
Sənə sirdaş olub kağızla qələm,
Sevmədi o nədən, səbəbin biləm,
Əhdində qalmayan yarı, gətirin.

AY KÖNLÜMƏ DÜŞƏN GÖZƏL

Bağda əsən meh kimisən,
Ay könlümə düşən gözəl.
Gül üzündə şeh kimisən,
Ay könlümə düşən gözəl!

Zirvələrdə ağ qarımsan,
Bağçamızda var barımsan,
Sən də mənim tən yarımsan,
Ay könlümə düşən gözəl!

Yayda sərin, saf suyumsan,
Əlim çatmaz bir arzumsan,
Könlümdəki xoş duyumsan,
Ay könlümə düşən gözəl!

Rahilə hey səni arar,
Mehə dönüb telin darar,
Belə gözəl de harda var?..
Ay könlümə düşən gözəl!

BİLMİRƏM

Susuram bir yanda günahkar kimi,
Günahım nədi ki, bilə bilmirəm,
Yersiz gah küsürəm, gah ağlayıram,
Kədəri üzümdən silə bilmirəm!

Xəyalların məni hey çəkir dara,
Aparır özüylə bilmirəm hara?
Salır gah çovğuna, gah da ki, qara
Verim dərdlərimi selə, bilmirəm?!

Rahilə, gəl qaytar sən də baharı,
Qoy sevən ürəyin susmasın barı,
Sevgi sevənlərin ilki, nübarı,
Bu nə möcüzədi bilə bilmirəm!

BİLİRSƏNMİ?...

Sənsən mənim xoşbəxt anım,
Damarımda axan qanım,
Sevgilim tək mehribanım,
Səni sevdim, bilirsənmi?

Ürəyimdə saf incimsən,
Gözlərimdə sevincimsən,
Qollarımda zor gücümsən,
Səni sevdim, bilirsənmi?

Səmadaki dan ulduzum,
Tək istəyim, dilək, arzum,
Sən yalqızca qalan quzum,
Səni sevdim, bilirsənmi?

Dilimdəki şirin sözüm,
Gözlərində qalıb gözüm,
Sənə vurğun mənim özüm,
Səni sevdim, bilirsənmi?

İlk məhəbbət sorağımsan,
Yazılmamış varağımsan,
Qəlb evimdə çırağımsan,
Səni sevdim, bilirsənmi?

Rahiləyəm, səni andım,
Varlığımı durub dandım,
Səni ömrüm günüm sandım,
Səni sevdim, bilirsənmi?

MƏNDƏN NAĞIL UMMA, DÜNYA

Kədərlə mən tələliyəm,
Ah amanlı, lələliyəm,
Qəm-qüssəylə şələliyəm,
Məndən ağıl umma, dünya.

Gözlərimə duman gəldi,
Qəlbim yandı, güman gəldi,
İlim ildən yaman gəldi,
Məndən nağıl umma, dünya.

Sevinc mənim tacım oldu,
Qüssə-kədər bacım oldu,
Nisgil-ağrı acım oldu,
Məndən noğul umma, dünya.

Rahiləyəm, ömür yarı,
Qocalaraq oldum qarı
Qucaq açıb mənə sarı,
Birdə doğul, umma, dünya.

AY İGİDLƏR DAYANMAYIN

Ay igidlər, dayanmayın amandı,
Qarabağin halı indi yamandı,
Köçkün üçün necə ağır zamandı,
Ay igidlər dayanmayın amandı,
Düşmən darda, halı indi yamandı.

Vətən dərdi ağır bir yük olubdu,
Bülbül ötmür, xarıbülbül solubdu,
Bu döyüşdə kafir qanı donubdu,
Ay igidlər, dayanmayın amandı,
Düşmən darda, indi halı yamandı.

Düşmənlərin bayraqları aşıbdı,
Səbir qabı həyacandan daşıbdı,
Səngərlərdə o qorxudan çaşıbdı,
Ay igidlər dayanmayın amandı,
Düşmən darda indi halı yamandı

ermənilər başına dərd açıbdı,
Qorxusundan top tankını atıbdı
Mərd ogullar, qabagından qacıbdı,
Ay igidlər, dayanmayın amandı
Düşmən darda, indi halı yamandı.

ÖMRÜN ÇİÇƏYİ SOLMASIN

Pəncərə önündə solan çiçək tək,
Ömrünün çiçəyi heç vaxt solmasın,
Nəmlənsin yanağın tər ləçəklər tək,
O ala gözlərin heç vaxt dolmasın.

Sən unut kədərli ayı, illəri,
Sızladıb ağladan qəmli günləri,
Unut, dərd verən o, acı dilləri,
O gözəl yanağın gül tək solmasın.

Elindən uzaqda qalmaq da olar,
Düşünüb fikirə dalmaq da olar,
Başından sevdayı almaq da olar,
Arada ayrılıq, həsrət olmasın.

Rahilə, yaşını kipriyə düzmə,
Axıdıb yanaqdan, dodağa süzmə,
Fikirlər içində özünü üzmə,
Üstünü qəm-qüssə, kədər almasın.

YAŞAYAM GƏRƏK

Mənim olmaq ücün yaşayırsansa,
Mən də sənin ücün yaşayam gərək.
Ümidin sonunda qovuşmaq varsa,
Sevgini qəlbimdə daşiyam gərək.

Ümidlə yaşamaq uzadar ömrü,
Xoşdu bu ömürdə bir sevda ömrü,
Tanrının verdiyi mən də bu ömrü,
Sevgi dolu anlar yaşayam gərək.

Deyirlər ümidlə yaşayır insan,
Ümidsiz yaşamaq çətindi inan,
Arzusu istəkdə hər gün, hər zaman,
Mən də öz arzumla yaşayam gərək.

NİYƏ İNCİYİM?

Gözümdən gözünə yol olammadım,
Yolların üstündə kol olammadım,
Boynuna dolanan qol olammadım,
Günahkaram, yardan niyə inciyim?

Bağban olub ağac əkəmmədimsə,
Bağın qayğısını çəkəmmədimsə,
Suyunu vaxtında, səpəmmədimsə,
Günahkaram, bardan niyə inciyim?

Sən dağsan, zirvəndə sar olammadım,
Yandım hey, oduna qor olammadım,
Üşüdün soyuqda qoruyammadım,
Günahkaram, qardan niyə inciyim?

Rahilə, nəğməli tar olanmadım,
Sevənlər qəlbinə heç dolanmadım,
Gül kimi bülbülə yar olanmadım,
Günahkaram, xardan niyə inciyim?

ANA HƏSRƏTİ

Bilirəm..həsrətəm sənə ömürlük,
Söylə təsəllini mən nədən alım?
Bacıma baxdıqca düşürsən yada,
Ay Ana, qoxunu mən kimdən alım?

Dağlara baxanda səni anıram,
Yoxluğunu çoxlarından danıram,
Sənsiz elə için-için yanıram,
Ay Ana, qoxunu mən kimdən alım?

Bülbül oxuyarmı çiçək açmasa,
Çiçək-çiçək deyil ətir saçmasa,
Mən də mən deyiləm Anam qucmasa,
Ay Ana, qoxunu mən kimdən alım?

Sənin həsrətindir yandiran məni,
Sənsiz mənə yaddır sevinc aləmi,
Dolanim başına pərvanə kimi
Ay Ana, qoxunu mən kimdən alım?

Qaygisiz körpətək yatmış könlümü,
Yenə də ay Ana, sənmi oyatdın?!
Sənsilik məhv edib mənim ömrümü,
Ay Ana, qoxunu mən kimdən alım?

Döndü yenə hecə gözümdə həyat,
Başıma fırlandı bütün kainat,
Sənsiz heç nə imiş bu dünya, hey hat..
Ay Ana, qoxunu mən kimdən alım?

Sənsiz bu dünyada yaşamaq çətin.
Məni xəstə salıb sənin həsrətin.

Rahiləyəm, budur sözüm-söhbətim,
Ay Ana, qoxunu mən kimdən alım?

LAL GÖZƏLİM

Məni gördün, dilin batdı?
Ay istəkli, lal gözəlim.
Baxışların müşgən atdı,
Şirin-şəkər, bal gözəlim.

Gəl oturaq biz diz-dizə,
Söhbət edək gəl üz-üzə,
Baxışaraq biz göz-gözə,
Yanaqları al, gözəlim.

Yaman düşüb meylim sənə.
Seyrə çıxaq gəl, çəmənə,
Rahilə də deyir sənə,
Gəl, yanımda qal, gözəlim.

VAR

Hər misrada, hər sətirdə,
Dərdlərimin çox azı var.
Qarlı, çovğun qışı demə,
Gül çiçəkli bir yazı var.

Her misrada, hər sətirdə,
Goz yaşım var, fəryadım var,
Amanları, ahı demə..
Sevgi dolu ümmanım var.

Hər misrada, hər sətirdə,
Qəmlə dolu naxışım var,
Kədəri heç, qüssə demə,
Sevinc dolu baxışım var.

Hər misrada, hər sətirdə,
Xoş anım var, xoş dəmim var,
Səsimdəki səsi demə,
Xoş avazlı bəmim də var.

Hər misrada, hər sətirdə,
Rahilənin sis çəni var,
Gözlərində yaşı demə,
Al yanaqda şeh, nəmi var.

KÖNLÜM

Nə sizlayan, nə ağlayan,
Könülləri o dağlayan,
Çeşmələr tək hey çağlayan,
Nəğməli, avazdı könlüm.

Sevənlər də gedə qoşa,
Ömürü birgə vura başa,
Birgə yerdə dola yaşa,
Nəğməli bir yazdı, könlüm.

Qış ötüşüb, daha yazdı,
Göldə üzən ördək, qazdı,
Gözəlin etdiyi nazdı,
Nəğməli bir sazdı, könlüm.

Ay Rahilə intizarda,
Çoxda qalma ah zarda,
Fikrin qalıb gözəl yarda,
Nəğməli bir qızdı, könlüm.

ANAM

Xəzan vurmuş çiçək kimi büküldüm,
Anam xəstə olub, can verən günü!
Şaxta döymüş qönçə kimi töküldüm,
Anam xəstə olub, can verən günü!

Anam sükut edir sanki çox dərin,
Gözlərindən yaş süzülür bax sərin,
Oz əlimlə sığalladım tellərin,
Anam xəstə olub, can verən günü!

O bir günəş idi yolumun üstə,
İndi dərd qoyurdu halımın üstə,
Başını qoymuşdu qolumun üstə,
Anam xəstə olub, can verən günü!

Övladlara öz ömrünən pay verib,
Su istədim sevinərək çay verib,
Son anda da „ha can" deyə hay verib,
Anam xəstə olub, can verən günü!

KÖHNƏ SEVGİN ÜÇÜN...

Ay mənə sevirəm deyən əzizim,
Köhnə sevgin üçün ağlarsan indi.
Hər zaman özünü öyən əzizim,
Köhnə sevgin üçün ağlarsan indi.

Boylanıb arxamca baxmırdı gözün,
Görəndə sevinib gülmürdü üzün,
İnsanı yandırıb yaxmayır sözün,
Köhnə sevgin üçün ağlarsan indi.

Bilirəm sevgidən doymaq da olmur,
Ağlayıb gözləri oymaq da olmur,
Sevgiyi bir yana qoymaq da olmur,
Köhnə sevgin üçün ağlarsan indi.

Tezliklə unutmaq çox asan deyil,
Başqa birisinə salsan da meyil,
Rahilə, sən köhnə sevgiyə əyil,
Köhnə sevgin üçün ağlarsan indi.

YAŞAYA BİLMİRƏM SƏNSİZ

Ayrılığın məni bir daş elədi,
Qayıt, mən yaşaya bilmirəm sənsiz.
Hicrana, nisgilə sirdaş elədi,
Qayıt, mən yaşaya bilmirəm sənsiz.

Sənsiz yaşamaq da yalan, əbəsdi,
Bu həsrət küləyi səbrimi kəsdi,
Artıq dözəmirəm gəl, daha bəsdi,
Qayıt, mən yaşaya bilmirəm sənsiz.

Gözümə çökübdü gözün qarası,
Sinəmdə qalıbdı həsrət yarası,
Sənsiz yaşamağın yox bir mənası,
Qayıt, mən yaşaya bilmirəm sənsiz.

Rahilə də sənsiz bil, qala bilməz,
Könlünü özgəyə bir yada verməz,
Ürək sözlərini kimsəyə deməz,
Qayıt, mən yaşaya bilmirəm sənsiz.

VƏFASIZ

Tikanlı sözünlə daladın məni,
Alovlara atıb qaladın məni,
Sevgi xəzinəmi taladın mənim,
Ay məni yandırıb, yaxan vəfasız...

Zəhərli qılıncı çəkdin üstümə,
Yağı düşmən kimi durdun qəstimə,
Gözlərimi tökən acı tüstümə,
Ay məni nizəyə taxan, vəfasız...

Sevgin gözlərimdən tökülüb gedir,
Baxışın ilmə tək sökülüb gedir,
Xəyalın duman tək çəkilib gedir,
Ay gülüb halıma baxan vəfasız.

Rahiləni saldın tamam həvəsdən,
Nə etdin, elədin, elə bil qəstən,
Verdin qüssələri birbəbir üstən,
Ay əhdinə dönük çıxan vəfasız.

APARIN VƏTƏNƏ MƏNİ

Mən Vətənsiz nəfəs ala bilmirəm,
A qardaş, gəl apar, Vətənə məni.
Vətəndən uzaqda qala bilmirəm,
A qardaş, gəl apar, Vətənə məni.

Heç çıxmır yadımdan dağlar, dərələr,
Gəlir göz önünə bəndlər, bərələr,
İstərəm bizi də Pirdə görələr,
A qardaş, gəl apar, Vətənə məni.

Boylanaq göllərin gül sonasına,
Boyanaq mamırlı daş xınasına,
Ziyarət eləyək el anasına,
A qardaş, gəl apar, Vətənə məni.

Rahilə gözləyir gedək ad edək,
Vətəndə hər kəsi durub yad edək,
Doğmalar könlünü alıb şad edək,
A qardaş, gəl apar, Vətənə məni.

GÜNƏŞLƏ DOĞULURAM

Üfüqlərdən günəş doğur,
Mən gunəşlə doğuluram.
Elə bil ki, mən Günəşin,
Nuru ilə yoğruluram.

Yenə verək gəl, əl-ələ,
Gedək birdə o yerlərə,
Dağ havası düşməz ələ,
Mən burada boğuluram.

Əsin külək, yağsın yağış,
Güllər əlvan, naxış-naxış,
Sən sevgidən bir az danış,
Mən yenidən doğuluram.

Dünya, səndə nələr gördüm...
Həm ağladım, həm də güldüm,
Rahiləyə konul verdim,
Bu sevgimlə qururluyam.

YARALI YARADIB

Qaranlıq zülmətdə mən doğulmuşam,
Dar gündə təndirdə mən qovrulmuşam,
Göz yaşı gölündə tək boğulmuşam,
Yaralı yaradıb, Yaradan məni.

Torpaqda çürümüş qara dən oldum,
Bitmədim zəmidən vaxtsız gen oldum,
Aglayan gözlərə hopan nəm oldum,
Yaralı yaradıb, Yaradan məni .

İstidə alışan tonqala döndüm,
Alovsuz közərmiş manqala döndüm,
Səhrada qurumuş qanqala döndüm,
Yaralı yaradıb, Yaradan məni.

Ağaran telində şanalar oldum,
Titrəyən əlində xınalar oldum,
Rahilə,yaralı sonalar oldum,
Yaralı yaradıb, Yaradan məni.

SEVİNİM

Qonşu qızı görmək üçün,
Bir bəhanə ver, ay ana,
Çıraq gətirim sənin üçün?
Görüb sevinim ay ana.

Həsrətindən çürüdü can,
Damarımda donubdu qan,
Görüm onu hər gün, hər an,
Gülüb sevinim ay ana.

Məni görüb naz eləsin,
Naz-qəmzəni az eləsin,
İlk görüşü yaz eləsin,
Görüb sevinim, ay ana.

Xeyir dua ver sən mənə,
Gedib çatsın o, həmdəmə,
Hazır olsun vüsal dəmə,
Gülüb sevinsin, ay ana.

Şux atlasdan paltar geyim,
Rahiləyəm sözüm deyim,
Payızda da mən toy edim,
Gülüb sevinim, ay ana.

AY İŞVƏLİ, NAZLI GÖZƏL

Bir qış günü Borçalıda,
Kazımağa ocağında,
Göz açmısan sən dünyaya,
Ay işvəli, nazlı gözəl.

Təbrik aldı atan anan,
Kəsdilər bir qoç da qurban,
Sevindi qoxum-əqraban,
Ay işvəli, nazlı gözəl.

Sən əsirin gözəlisən,
Həm Əslisi, Leylisisən,
Natavanı, Şirinisən,
Ay işvəli, nazlı gözəl.

Gül də sənlə durmur qoşa,
Gözəlliyin bir tamaşa,
Kim dayanar o baxışa...
Ay işvəli, nazlı gözəl.

Bir həvəskar şairəsən,
Yaman duzlu, məzəlisən,
Bəd nəzərə gəlmiyəsən,
Ay işvəli, nazlı gözəl.

Borçalının sonasısan,
Neçə uşaq anasısan,
Gəlininə qaynanasan,
Ay işvəli, nazlı gözəl.

Bir yanında, oğul, qızın,
Bir yanında yar yoldaşın,

Çək dünyanın sən səfasın,
Ay işvəli, nazlı gözəl.

OLDU

Həsrət yaman dağlar məni,
Yarım niyə bilməz oldu,
Gözüm yolda ürək dözmür,
Yarım niyə bilməz oldu.

Sən buluda dönüb ağla,
Sellər kimi coşub çağla
Sinən üstə dəsmal saxla,
Göz yaşımı silməz oldu.

Bu nə dərddi, bu nə qəmdi.
Bu ayrılıq bir sitəmdi,
Alışan da bu sənəmdi,
Rahilə də gülməz oldu.

QIZLAR

Qızlar yazda acan çiçəyə bənzər
Elə bil Nərgizdi, Süsəndi qızlar,
Qönçələr bəzəyi ləçəyə bənzər,
Tellərə çiçəklər düzəndi qızlar.

Qızlar baxçaların barı kimidi,
Alması, heyvası narı kimidi,
Dağlar zirvəsinin qarı kimidi,
Sevgilər bağında gəzəndi qızlar.

Yanaqları lalə, dodağı püstə,
Lalə tək xal düzür yanağı üstə,
Əlləri xınalı, boyları bəstə,
Hər toyda-düyündə süzəndi qızlar.

Həyatda özünə hər kəs yar seçər,
Gözəllər özünə güldən don biçər,
Rahilə, qəlbimdən bir göycək keçər,
Sevənin ürəyin üzəndi qızlar.

BİLMƏYƏCƏKSƏN

Gözlərim tikilib gözünə sənin,
Közərib yanacan, sönmüyəcəksən.
Axacaq qəlbinə qəm-kədər sənin,
Süzülən yaşını silməyəcəksən.

Həsrətim çökəcək qəlbinə sənin,
Sevgidən danışıb gülməyəcəksən.
Xəyalın göylərdə olacaq sənin,
Kədər qucağından gəlmiyəcəksən.

Çıxarsan sən mənsiz dağa, gah daşa,
Gedib uzaqlarda tək tənha yaşa,
Həsrətlə vurarsan ömrünü başa,
Sən məni heç yanda görməyəcəksən.

Gəzəcəm həmişə qanında sənin,
Ruhunda ,qəlbində,canında sənin,
Xəyalın olacam yanında sənin,
Sən məni unuda bilməyəcəksən.

BİLMƏDİM

Görmədim sevginin etibarını,
Düşdüm eşq yoluna, dönə bilmədim.
Duymadım qışını, nə baharını,
Yandırdı odunda, sönə bilmədim.

Məhəbbət yolunda çox cəfa cəkdim,
Şumladım qəlbimi, qəm dəni əkdim.
Ağladım,sızladım göz yaşı tökdüm,
Qovruldum közündə, yana bilmədim.

Həsrətlə mən baxdım eşqin gözünə,
Qəlbimsə baxmadı ağlın sözünə.
Qocaldım, yenə də mənim üzümə,
Sevgilə baxdılar, qana bilmədim.

Çoxdu Rahiləni, eşqdə qınayan,
İmtahana çəkən, onu qınayan,
Yoxdur başa düşüb, nə bir anlaya,
Çox insan axtardım, ana bilmədim.

SEVDİYİM GÖZƏL

Gözəllərin gözüdü,
Mənim sevdiyim gözəl.
Mələklərin özüdü,
Mənim sevdiyim gözəl.

Ceyran tək hürkək gəzər,
Gül tək ömrümü bəzər,
Yanağına xal düzər ,
Mənim sevdiyim gözəl.

Gözün süzdürüb baxar,
Ruh tək qəlbimə axar,
Məni yandırıb yaxar,
Mənim sevdiyim gözəl.

Çaglayanda bulaq tək,
Arzum açır gül-çiçək,
Kaş, sevəydi mənim tək,
Məni, sevdiyim gözəl.

Rahiləyəm öyürəm,
Necə sevir bilirəm,
Xoşbəxt olsun deyirəm,
Mənim sevdiyim gözəl.

NƏ QƏDƏR ÖMRÜM VAR

Nə dərdin var alıb özüm çəkəcəm,
Tək istəyim bircə deyib güləsən,
İstəməsən qarşında diz cökəcəm,
Sənsən sevdiyim yar onu biləsən,
Nə qədər ömrüm var səni sevəcəm.

Axan göz yaşımı silməyin ücün,
Qəlbimdən keçəni bilməyin üçün,
Sevinclə yaşayıb gülməyin ücün,
Sən nə desən, mən də onu edəcəm,
Sənə bu ömrümü verib gedəcəm.

Bir sevgi dəmiylə yaşayaq elə,
Biri-birimizə sevirəm deyə,
Yaşayaq bir yerdə can deyə-deyə,
Hara getsəm mən sənlə gedəcəm,
Nə qədər ömrüm var səni sevəcəm.

SEVGİDƏN DƏ YETİM QALANDA

Sevgisiz insanlar nələr çəkərmiş,
Dolar bulud kimi leysan tökərmiş,
Həsrəti möhnəti qəmə bükərmiş,
İnsan sevgidən də yetim qalanda.

Dəryada tək qalan qayığa bənzər,
Özüdə bilməz ki, haraya üzər,
Ya da ki, mayaq tək kimisə gözlər,
İnsan sevgidən də yetim qalanda.

Ayrılıq çox acı bir zəhər olar,
Boğazlarda qalan bir qəhər olar,,
Həvəsi də ölər bir təhər olar,
İnsan sevgidən də yetim qalanda.

Arzusuz nə qədər yaşamaq olar?
Günləri nə qədər sanamaq olar?
Özünün nə qədər qınamaq olar?
İnsan sevgidən də yetim qalanda.

ZÜBEYİR

Gözlər yol çıkirdi gör neçə ildi,
Bir evə bir sevinc gələcək deyə.
Axır ki, İlahi, o gün də gəldi,
Sevinci sığmadı nə yerə, göyə.

Təbrik edir bu gün hamı Anarı
Dünyaya göz açan körpə balanı.
Neçə il həsrətlə gözləyib hamı
Tanrı verdi bu gün şirin balanı

Muştuluq verdilər, qurban kəsdilər,
Bir evin nurundan mahal nur aldı.
Allah neməti tək üstə əsdilər,
Adlar içində adı Zübeyr qaldı.

Gəlişi dünyanı gözəlləşdirib,
Bağımız, baxçamız təzə gül açdı.
Həftələr, aylar da dolanıb keçsin,
Desinlər, ay ellər, körpə dil açdı.

Yerisin, yüyürsün, yıxılsın dursun,
Güc alsın torpaqdan o körpə dizi,
Ürəyi daima elinən vursun,
Tarixə yazılsın Zübeyr izi.

VURĞUNAM

Sevirəm qartallı uca dağları,
Almalı, heyvalı, barlı bağları.
Dan yeri sökülən səhər çağları,
Çiçəkdə bir gilə yaşa vurğunam.

Baxanda baxışı dünyamı alan,
Qəlbimi oynadıb ,könlümü çalan,
Könlümə əbədi od-alov salan
Ala göz üstündə qaşa vurğunam.

Uzaqdan -uzağa Vətəni süzən,
Kədər, qəm avazlı nəğmələr düzən,
Ahı-naləsiylə qəlbimi üzən,
Qarabağ bülbülü- quşa vurğuam

Ömrümü yayının odu qovurar,
Payızı, gülümü vaxtsız sovurar.
Rahilə, qış ötüb gələcək bahar,
Sonu bahar olan qışa vurğunam.

GƏL QADANI ALIM SƏNİN

Hicranına dözəmmirəm,
Gəl qadanı alım sənin,
Yollar boran, gələmmirəm,
Bil, qadanı alım sənin.

Həsrətindən üz gülənmir,
Kimsə dərdim heç bilənmir,
Bax bir söz də deyə bilmir
Dil, qadanı alım sənin.

Dağlayırsan ürək başı,
Süzdürürsən gözü qaşı,
Gözlərindən axan yaşı,
Sil, qadanı alım sənin.

Bu həsrətin varmı sonu?...
Gəl geyinmə qəmdən donu,
Rahilənin qurban canı,
Gül, qadanı alım sənin.

MƏNİM

Səni atıb getməmişəm,
Ay ürəyim, canım mənim.
Xəzəl olub düşməmişəm,
Damarımda qanım mənim.

Qəza məni dərdə saldı,
Əzizimi məndən aldı,
Görüşməyə imkan oldu?
Gözlərimdə yaşım mənim.

Etibarsız mən deyiləm,
Dərd vurdu ki, mən əyiləm,
Səni sevdim, mən seviləm,
Bədənimdə başım mənim.

Gəl gözümün qarası ol,
Sev, ürəyim parası ol,
Dur canımın yarısi ol,
Göz üstündə, qaşım mənim.

Rahilə bil ürəyimdi,
Qəndim, balım,çörəyimdi,
Dar günümdə gərəyimdi,
Qəmli gözdə yaşım mənim.

EY YURDUMUN ƏSGƏRLƏRİ

Qüdrətinlə qürurlanır,
Sənin ilə vüqarlanır,
Vətən sənə arxalanır,
Vətənin canlı sipəri
Ey yurdumun əsgərləri!

Səni cəsur, mərd bilmişuk
Bir yenilməz sədd bilmişik,
Yağılara dərd bilmişik,
Göstər düşmənə hünəri
Ey yurdumun əsgərləri!

Arxandadır sənin xalqın,
Şərəflidir əsgər adın,
Qələbəyə siz tez catın
Azad edin torpaqları
Ey yurdumun əsgərləri!

Bayrağını uca saxla
Sərhədləri tez-tez yoxla,
İrəli get, sən bayraqla,
Alın geri Qarabağı
Ey Azərbaycan əsgərləri!

SƏNİN

Sevirəm mən səni, söyləyən "gözəl"!
Saxta məhəbbətin, söndümü sənin?
Yolçunu yolundan əyləyən "gözəl"!
Yolun qar-borana döndümü sənin?

Aldandım hüsnünə, tora düşmüşəm,
Gözündən od alıb, qora düşmüşəm,
Məhəbbət dağında qara düşmüşəm,
Qəlbində işıqlı gündümü sənin?

Gözümün yaşını silə bilən yox,
Bu qəm otağıma gələ bilən yox,
Mə elə yanıram, görən, bilən yox,
Eşqi-məhəbbətin söndümü sənin?

Rahilə, dilinə heç yalan gəlməz,
Vəfasız gözəllər, qədrini bilməz,
Sındirdın nə yaman, heç vaxt əyilməz,
Şad olan, sevinən gündümü sənin?

GÖZLƏRƏM MƏN SƏNİ

Heç bilmirəm hardasan?
Arandasan dağdasan,
Ya kefdəsən, dardasan,
Sevməsəndə sən məni,
Gəl, gözlərəm mən səni.

Günəş olub saçmışam,
Qəm qüssədən qaçmışam,
Qollarımı açmışam,
Görməsəndə sən məni,
Gəl, gözlərəm mən səni.

Sənə sevgi bəslədim,
Qəm kədəri nəslədim,
Gecə gündüz səslədim,
Gəzməsəndə sən məni,
Gəl, gözlərəm mən səni.

Xoş avazlı səsindi,
Bilmədim, kim kəsindi,
Can söyləsən bəsimdi...
Unutsanda sən məni,
Gəl, gözlərəm mən səni.

Eşq önündə əyildim,
Dərd əlində yeyildim,
Mən qırılan deyildim,
Sındırsanda sən məni,
Gəl, gözlərəm mən səni.

Rahiləyəm anlaram,
Sevgidə yanılmram,
Öz özümü danlaram,

Aldatsanda sən məni,
Gəl, gözlərəm mən səni.

MƏN

Elə bildim dolu döydü,
Həsrət məni yaman əydi,
Şux qamətim yerə dəydi,
Düşmürdümmü yadına mən?

Sanırdım ki, yad olmuşam,
Yada fəryad, dad olmuşam,
Səni gördüm-şad olmuşam,
Gəl isinim, oduna mən.

Nə yaxşı ki, gəlib çıxdın,
Gözlərimə dönüb baxdın,
Rahiləni, oda yaxdın,
Qurban olum adına mən.

SEVGİM

Gözümün nurunu apardın getdin,
Sən oldun başımın bəlası, sevgim,
Ruhumu qəlbimdən qopardın getdin,
Uçubdu könlümün qalası, sevgim.

Xeyir Mələkləri uçur yanımnan,
Dolanır qəm kədər çıxmır qanımnan,
Bilmirsən, bezmişəm sənsiz canımnan.
Deyəsən canımı alası, sevgim.

Ahımla alışdım, yandım, sönmürəm,
Kədər üzümdədi, vallah gülmürəm,
Görüş yerinə də, daha gəlmirəm,
Olub ürəyimin yarası sevgim.

Apardığın sevgi səni danlamaz,
Qəlbini incidib səni qınamaz,
Rahilə dərdini kimsə anlamaz,
Gedib ciyərimin parası, sevgim.

SƏN

Həsrətin qoymayır gecələr yatım,
Məhəbbət gölümün sonasısan, sən,
Ürəyim istəyir, arzuma çatım,
Gözümün nur saçan aynasısan, sən.

İlahi, sevginin gücünə bir bax,
Gözümü eyləyib çağlayan bulaq,
Həsrətin yandırır, gəl bizə qonaq,
Bu sevən könlümün dünyasısan, sən.

Pərvanə sevgisin alovdan alır,
İldırım sevgisin torpağa salır,
Rahilə də sənsiz saralıb, solub,
Onun loğmanısan, dərmanısan, sən.

QƏLBİM OD TUTUB YANIR

Mənə çətin olur, bu həsrət, bu qəm,
Səni sevən qəlbim od tutub yanır.
Mən qəm yolçusuyam, sən mənə həmdəm,
Görəsən həmdəmim, heç məni anır?

Ağlımın zəkası yaman dolaşıb
Başım dumanlanıb, fikrim qarışıb,
Diyəsən əqlimdə bir qədər çaşıb,
Görəsən, sevənim məni nə sanır?

Rahilə könüldən sənə bağlıdı,
Günü gah qaralı, gahda ağlıdı,
Sinəm çalın-çarpaz elə dağlıdı...
Görəsən sevənim mənə inanır?

YAR UNUTMAZ

Sevgin mənə can gətirib,
Qəlbim üstə gül bitirib,
Məni eşqimə yetirib,
Unutmaz yar, yox unutmaz.

Həsrət də bu qədər imiş
Kədər qüssə gedər imiş,
Ağlamağım hədər imiş,
Unutmaz yar, yox unutmaz.

Sevgi gülü vaxtsı solmaz,
Hər ürəkdə sevgi olmaz,
Keçər aman belə qalmaz,
Unutmaz yar, yox unutmaz.

Sevib sevən vaxtımızdı,
Sevinc dolu baxtimizdi,

Gül çiçəkli taxtımızdı,
Unutmaz yar, yox unutmaz.

Rahilə inan özünə,
Kölgə salma sən gözünə,
Sevgidə sadiq sözünə,
Unutmaz yar, yox unutmaz.

SƏN UZAQDA OLANDA

Gözlərimdə gözyaşları çaglayar,
Gözlərimdən sən uzaqda olanda.
Atəş olub yanağımı dağlayar,
Gözlərimdən sən uzaqda olanda.

Kaş çəkəydim o işvəni, o nazı,
Dinləyəydim sən çaldığın o sazı,
Eşidəydim dilindən xoş avazı,
Gözlərimdən sən uzaqda olanda.

Xatirələr yaddaşmızda qalıbdı,
Olanları bir-bir yada salıbdı,
Üstümüzü çən-dumanmı alıbdı,
Gözlərimdən sən uzaqda olanda.

Rahiləyəm, xəyalınla gəzirəm,
Ağ saçları tellerimə düzürəm,
İnanın ki, öz-özümdən bezirəm,
Gözlərimdən sən uzaqda olanda..

UNUDUM SƏNLİ İLLƏRİ

Çalışdım tezliklə unudum səni,
Silim yaddaşımdan xatirələri,
Tamamca qəlbimdən çıxarım səni,
Unudum o bəmli, dəmli illəri.

Yanıb qovrulduqca sovruldu külüm,
Vaxtında açmadı, saraldı gülüm,
Mən indi bilmirəm necə unudum,
Dumanlı illəri, çənli illəri.

Artıq o illərdən uzaqlaşıram,
Acı xatirəylə qucaqlaşıram,
Qəmli taleyimlə hesablaşıram,
Unudmaq istərəm qəmli illəri.

Necə də çətindi, unudmaq olmur,
Hər sözü söz edib danışmaq olmur,
Sənsiz yaşamaq da yaşamaq olmur,
Necə mən unudum sənli illəri?

QAYIT GƏL

Qarabağdan yeni sədə almışam,
Deyir mizrab simə dəyib qayıt gəl.
Oxuduqca xəyallara dalmışam,
Qarabağa bahar gəlib qayıt gəl.

O yerlərin bağçası var barı var,
Bağlarında heyvası var ,narı var,
Qayalardan uçub gələn sarı var,
Qarabağa bahar gəlib, qayıt gəl.

Tənha qalıb xarı bülbül o yerdə,
Saralıbdı sarı sünbül o yerdə,
Xislət çəkir sarı bülbül o yerdə,
Qarabaga bahar gəlib, qayıt gəl.

Dərdi-qəmi uzaqlarda itir, gəl,
Xarıbülbül saçır yenə ətir, gəl,
El- obayı özün ilə gətir, gəl,
Qarabağa bahar gəlib, qayıt gəl.

Daha dözmür tükənibdir səbrimiz,
Qalib gələk bayram edək, gərək biz,
Rahiləyəm ,azad olsun elimiz,
Qarabaga bahar gəlib, qayıt gəl.

AZƏRBAYCAN ŞAHİNİLƏR

Arzularınız gül açacaq,
Dünyamıza nur saçacaq,
İstəyinə tez çatacaq,
Azərbaycan şahinləri.

Vətənimin mərd oğlusuz,
Qeyrət çəkə nər oğlusuz,
Düşmənlərə dərd oğlusuz,
Azərbaycan şahinləri.

Zülmətə siz olduz çıraq,
Yatmadınız,qaldız oyaq,
Vətənmizə olduz dayaq,
Azərbaycan şahinləri.

Vətən eşqi canınızda,
Qeyrət, namus qanınızda,
Siz cəsursuz yolunuzda,
Azərbaycan şahinləri.

ŞƏHİD

Qanlı aprel,- dərdin dərin,
Qisas yerdə qalmaz Şəhid.
Yeri göynər yaraların,
Qisas yerdə qalmaz Şəhid.

Qalxan-sipər canın oldu,
Torpağına qanın doldu,
Ulu Tanrı yarın oldu,
Qısas yerdə qalmaz Şəhid.

Mərd igidlər şəhid oldu,
Obaya qəm-qüssə doldu,
Bu da haqqa gedən yoldu,
Qisas yerdə qalmaz Şəhid.

Rahilə ahın haqqa çatmaz?
Sən ölsəndə, ruhun yatmaz,
Şəhidlərin qanı batmaz,
Qisas yerdə qalmaz Şəhid.

TƏBRİZİM

2016-il, 4-aprel döyüşündə qəhrəmancasına həlak olmuş Təbriz Musazadəyə

Ömrün baharında açdı gül-çiçək,
Başına dolanım mən ay Təbrizim!
Vətəni qorudun sən ürəyin tək,
Hey uç səmalarda sən, ay Təbrizim!
Başına dolanım mən, ay Təbrizim!

Oğullar içində sən oldun kişi,
Torpağı qorumaqdı kişinin işi,
Bax belə olubdu dünya gərdişi,
Hey uç səmalarda sən, ay Təbrizim!
Başına dolanım mən, ay Təbrizim!

İgidsən Vətənə etdin xidməti,
Unutdurdun bizə dərdi möhnəti,
Göylərə ucaltdın eli, milləti,
Hey uç səmalarda sən, ay Təbrizim!
Başına dolanım mən, ay Təbrizim!

Ata-ana fəxridi qoruxmaz övlad,
Qeyrətdi, namusdu, irsdi təmiz ad,
Qəhrəman adlı ol Vətənə qanad,
Hey uç səmalarda sən, ay Təbrizim!
Başına dolanım mən, ay Təbrizim!

XƏBƏR GÖNDƏRƏM...

Daha qışdı, durna yoxdu,
Xəbər göndərəm-göndərəm,
Göz yaşlarım selə dönüb,
Arxa döndərəm-döndərəm.

Xəzan vurub baxçamı da,
İtirmişəm sonamı da,
Verim qurban, bu canı da,
Səni dindirəm-dindirəm.

Əgər uysan başqasına ,
Oyun açaram başına,
And olsun bu vicdaına,
Gəlləm, öldürəm-öldürəm!

BAYATILAR

Əzizinəm, qara bax,
Aç zülfünü dara, bax,
Dünya yaman dəyişib,
Nə dosta, nə yara bax.

Əzizinəm ayrıdı,
Yarım məndən ayrıdı,
Hərənin öz yeri var,
Sənin yerin ayrıdı.

Dərdimi yara deyim,
Düşmüşəm dara, deyim.
Gəlib görsün halımı,
Eləsin çarə deyim.

Gözünün qarasına,
Ağına qarasına,
Mənim bu canım qurban,
Borçalı balasına.

Eşqimiz, cana gələ,
Göllərə sona gələ.
Rahilənin məhəbbəti,
Yarını qana, gələ.

Əzizim, anan ağlasın,
Dərdimi qanan ağlasın.
Mən vaxtsız köçürəm,
Arxamca yanan ağlasın.

Əzizim canım yandı
Axıbdı qanım yandı,

Mən vaxtsız köçürəm,
Ağladı bacım yandı

Əzizinəm vətən dərdi,
El dərdi, Vətən dərdi,
Bütün dərdlər unudular,
Unudulmaz Vətən dərdi.

Əzizinəm vətən dərdi,
Gülümü hər yetən dərdi.
Qarabağım azad ola,
Unudula vətən dərdi

Əzizinəm üzüm yox,
Yeməyə də üzüm yox,
Gülüşümdən pərt oldum,
Baxmağada üzüm yox.

Əzizinəm yaz gələr,
Qış ötüşər yaz gələr.
Darıxmağa səbəb yox,
Köçən quşlar yaz gələr.

Əzizinəm qatarlaşdı,
Düzülüb qatarlaşdı.
Ömrümün payız çağıdı,
Dərd muncuq tək qatarlaşdı.

Əzizinəm qoşa uça,
Cüt gəzib qoşa uça.
Ovçu aman vermədi,
Durnalar qoşa uça.

Əzizim haralıdı?
Kipriyi qaralıdı.

Çox baxdım tanımadım,
Bu dərdli haralıdı?

Əzizim haralıdı?
Köksünən yaralıdı...
Elinən uzaq düşüb,
Vətəndən yaralıdı.

Əzizim haralıdı?
Rəngi çox saralıdı,
Elindən uzaq düşüb,
Başıda qaralıdı.

Əzizinəm naxışdı,
İlmələrdə naxışdı.
Sevənlərin arzusu
Bircə oğrun baxışdı.

Əzizinəm naxışdı
Bu baxış, nə baxışdı?
Hər baxışın özüdə
Gözəl--göyçək naxışdı.

Əzizim bizim dağlar,
Düzülüb düzüm dağlar
El səndən ayrı düşüb
Tükənib sözüm dağlar.

Əzizinəm qaş bilər,
Kiprik bilər, qaş bilər.
Qəriblərin dərdini,
Göz axıdan yaş bilər.

Əzizinəm telimi,
Yel daradı telimi,

Vətəndən uzaq düşdüm
Qəm ağartdı telimi.

Əzizinəm aramaz,
Qara zülfün daramaz.
Ağlı kəmə söz dedim,
Dedi,- sözün yaramaz.

Əzizinəm, bu azdı...
Nə qış, nədə ki, yazdı.
Sevdiyimi deyəndə,
Dedi anlayışın azdı.

Əzizinəm nə gəzir
Fikir qəlbimi əzir
Mən anlatmaq istədim,
Onda anlayış nə gəzir...

Əzizinəm bal dadır,
Şəkər dadır, bal dadır.
Qürbət sözü qəhərdi,
Vətən dadı bal dadır.

Əzizinəm aldımı,
Çiynindəki şaldımı?
Göz oxşayan lalə tək,
Yanağında xaldımı?

Əzizinəm Vətən dərdi,
El dərdi, Vətən dərdi,
Qarabağa tez qayıdaq,
Kaş qurtara Vətən dərdi.

Əzizinəm gül dərdim,
Çiçək dərdim, gül dərdim.

Bu nisgilli ürəyimdən,
Yox olaydı Vətən dərdim.

Əzizinəm olmaya,
Gözlər yaşla dolmaya,
Nə ola, heç körpələr,
Ata-anasız olmaya.

Əzizinəm olaydı,
Qəlbə sevinc dolaydı
Hər bir zaman Anam da,
Kaş yanımda olaydı.

Əziznəm qoyubdu,
Yaşla gözün oyubdu.
Balasının yolunda,
Ata-Ana can qoyubdu.

Əzizinəm olmasın,
Vaxtsız çiçək solmasın,
Ananı saymayanın,
Heç ağ bəxti olmasın.

Zirvələrdə qar olsun,
Baxçalarda bar olsun.
Ata-ana sevənə,
Tanrı daim yar olsun.

Oğul-uşaq var olsun,
Tanrı ona yar olsun,
Ata ilə ananı
Sevməyənə ar olsun.

Əzizinəm yoğrulmuşam,
Yana-yana qovrulmuşam,
Yollarını gözləməkdən,
Kül olub sovrulmuşam.

Əzizinəm sınama,
Vəfasızı sınama,
İnsanlar çox dəyişib,
Sınsanda qınama.

Əzizinəm başa məni,
Çək gözə,qaşa məni,
Arada həsrət olmasın,
Vurmasın daşa məni.

Əzizinəm çiçəkləndi,
Gül açdı, çiçəkləndi,
Gözün aydın, Azərbaycan!
Qələbəmiz gerçəkləndi.

Əzizinəm daş olam,
Torpaq olam, daş olam,
Qarabağ tez alına,
Orda vətəndaş olam.

Əzizinəm çiçək açа,
Gül açа, çiçək açа,
Qarabağ tez alına,
Arzular çiçək açа.

Əzizinəm dolanam,
Mə duram, mən dolanam,
Qarabağ tez alına,
Başına mən dolanam.

Əzizinəm o yana,
Yatan vicdan oyana.
Qarabağ tez alına,
Mənim bəxtim oyana.

Əzizinəm boyana,
Al-əlvana boyana.
Qarabağ tez alına,
Vətən nura boyana.

Əzizinəm sellənə,
Axar sular sellənə,
Qarabağ tez alına,
Sevinc yaşı sellənə.

Əzizinəm dillənə,
Danışmayan, dillənə,
Qarabağ tez alına,
Telli sazım dillənə.

Əzizinəm şam yana,
Çıraq yana, şam yana,
Qarabağ tez alına,
Xonçalarda şam yana.

Əzizim özü gülməz ,
Danışar sözü gülməz.
Oğulu şəhid olun,
Ananın üzü gülməz.

Əzizim anam ağlar,
Varlığı donar ağlar,
Balası şəhid olan,
Analar yanar ağlar.

Ürəyi telə döndü,
Gözyaşı selə döndü,
Oğullar şəhid oldu,
Analar külə döndü.

Əzizim yara məni,
Boyadı qara məni.
Oğullar şəhid oldu,
Öldürdü yara məni.

Əzizim başa döndü,
Kirpikdə yaşa döndü.
Oğullar şəhid oldu,
Analar daşa döndü.

Əzizim təzə dərdim,
Gül dərdim, təzə dərdim,
Köhnə dərdim bir yana,
Vətəndir, təzə dərdim.

Əzizim qənim olsun,
Qəmimdə kəmim olsun,
Kİm xalqa zülm eləsə,
Yaradan qənim olsun.

Əzizim mərdə düşsün,
Kaş işin mərdə düşsün.
Xalqa xain baxanı,
Sağalmaz dərdə düşsün.

Kim ağlayır, kiriyəcək,
Dəmir nəmdə çürüyəcək.
Həyat belə yaranıb,
Dərdli dərdin sürüyəcək.

Budur hamıda arzu,
Ana şirin, bir ruzu,
Kaş ki, anam duraydı,
Deyəydi, mənə quzu.

Əzizim ana, dərdim,
Yanmaya, sönə dərdim,
Boylandım baxdım, gördüm,
Hər kəsdən önə dərdim.

Əzizim çağı deyə,
Bağçası bağı deyə.
Sağ olaydı kaş, anam,
Ürəyim yağı deyə...

Əzizim ad elədi,
Unutma, yad elədi,
Anası ölən qızlar,
Durmadı, dad elədi.

Əzizinəm üzüm yox,
Yeməyə də üzüm yox,
Gülüşümdən pərt oldum,
Baxmağada üzüm yox.

Əzizinəm yaz gələr,
Qış ötüşər yaz gələr.
Darıxmağa səbəb yox,
Köçən quşlar yaz gələr.

Əzizinəm qatarlaşdı,
Düzülüb qatarlaşdı.
Ömrümün payız çağıdı,
Dərd muncuq tək qatarlaşdı.

Əzizinəm qoşa uça,
Cüt gəzib qoşa uça.
Ovçu aman vermədi,
Durnalar qoşa uça.

Əzizinəm vətən dərdi,
El dərdi, Vətən dərdi,
Bütün dərdlər unudular,
Unudulmaz Vətən dərdi.

Əzizinəm vətən dərdi,
Gülümü hər yetən dərdi.
Qarabağım azad ola,
Unudula vətən dərdi

Əzizinəm olmaya,
Gözlər yaşla dolmaya,
Nə ola, heç körpələr,
Ata-anasız olmaya.

Əzizinəm olaydı,
Qəlbə sevinc dolaydı
Hər bir zaman Anam da,
Kaş yanımda olaydı.

Əziznəm qoyubdu,
Yaşla gözün oyubdu.
Balasının yolunda,
Ata-Ana can qoyubdu.

Əzizinəm olmasın,
Vaxtsız çiçək solmasın,
Ananı saymayanın,
Heç ağ bəxti olmasın.

Zirvələrdə qar olsun,
Baxçalarda bar olsun.
Ata-ana sevənə,
Tanrı daim yar olsun.

Oğul-uşaq var olsun,
Tanrı ona yar olsun,
Ata ilə ananı
Sevməyənə ar olsun.

Əzizim özü gülməz ,
Danışar sözü gülməz.
Oğulu şəhid olan,
Ananın üzü gülməz.

Əzizim anam ağlar,
Varlığı donar ağlar,
Balası şəhid olan,
Analar yanar ağlar.

Üeəyi telə döndü,
Gözyaşı selə döndü,
Oğullar şəhid oldu,
Analar külə döndü.

Əzizim yara məni,
Boyadı qara məni.
Oğullar şəhid oldu,
Öldürdü yara məni.

Əzizim başa döndü,
Kirpikdə yaşa döndü.
Oğullar şəhid oldu,
Analar daşa döndü.

Əzizim təzə dərdim,
Gül dərdim, təzə dərdim,
Köhnə dərdim bir yana,
Vətəndir, təzə dərdim.

Əzizim qənim olsun,
Qəmimdə kəmim olsun,
Kim xalqa zülm eləsə,
Yaradan qənim olsun.

Əzizim mərdə düşsün,
Kaş işin mərdə düşsün.
Xalqa xain baxanı,
Sağalmaz dərdə düşsün.

Kim ağlayır, kiriyəcək,
Dəmir nəmdə çürüyəcək.
Həyat belə yaranıb,
Dərdli dərdin sürüyəcək.

Mündəricat

Önsöz əvəzi.....3
Yarım 8
Sən mənim ol..... 9
Kimi 10
Qızılgülə bax 11
Bizim Gəray 12
Sənsən.....13
Qaynana.....14
Yarı şirin, yarı acı.....15
Qurban olum, ay Ana!.....16
Heç.....17
Oxu, bülbül.....18
Axtarıram.....19
Səni sevirəm 20
Niyə ürəkdən sevməyim səni 21
Sən olaydın 22
Dəydi.....23
Bilmirəm.....24
Xəyallar, ümidlər, ölməsin …….....25
Xocalı 26
Gələrəm.....27
Məni 28
Nədi…… 29
Var içində.....30
Axşam oldu.....31
Naz gözəlim.....32

Başkeçidin qızları.....33
Mən necə unuda bilərəm axı 34
Alıbdı 35
Bu nə dərddi……36
Sevgi həsrəti ……37
Kəndimə……..38
Gəlləm……39
İçimdə……. ……40
Gəl görüşə……...41
Hardasan……42
Sənə heyran……43
Əngiravan……44
söylədi……45
Sənə görə……46
Yoxdur……47
Sənin ……48
Aparın dağlara məni ……49
Sevginin……..50
Xalam..... ..... …51
Anamın laylası……52
Özünə öyrətmə məni ……53
Ağlayırsan Mehman ……54
Necə danım……55
Ad günün mübarəl……...56
Ad günümdü ……57
Məni atan oğlan……...58
Qoşa bulaq……...59
Qalıb……60
Deyil ……61
Səni sevmək ölümdən də betərmiş ……..62
Töhfə ……63
Yuxuma gəlmişdi mənim … ……64
Baxma mənə ……65
Düşüb ……66

Yada salirsanmı……...67
Ölür sənsiz ……68
Dolaşırsan ……69
Axtarıram yenə itən illəri ……..70
Baxışlarım ……71
Azərbaycan əsgəri ……72
Yürüş eyləyək……73
Baxışlarım... ……74
Gəlin . ……75
Sənə gələcəm ……76
Arasındayam ……77
Dönüb ……78
Mənim gözlərimə bax……79
Həsrət ……80
Gümandı sevgi……81
Gözəllərin gözəli ……82
Xoşbəxt ol ay gəlin ……83
Sevdim dəli kimi ……84
Yarım, əlac səndədimi ……85
Ayrılığın acısı.....86
Sevirəm səni ……87
Sənin... ……88
Dağlar mənən inciyibdi ……89
Dursun oxuyanda ……90
Ata bilmədim ……92
Sevgi ……93
Bahar sevgimiz ……94
Sevgidən nəyi pisdi ……95
Təbiət ……96
Sirdaşım……..97
Gözəl ……98
Xalçaçı qızlar ……99
Gəl... ……...100
Hisslrimi oyatma……...101

Kədər dünyasına apardı məni……... ……102
Görmüşəm ……...103
Mənəm sənsiz ……...104
Kədər dünyasına apardı məni……105
Tökəcəm yarpaqlarımı……..106
Qədrini hardan biləcək……..107
Bir Vətən, bir də sən ……..108
Səni sevən gündən……109
Yarı gətirin ……..110
Ay könlümə düşən gözəl ……111
Bilmirəm ……...112
Bilirsənmi ……...113
Məndən nağıl, umma dünya ……114
Ay igidlər, dayanmayın ……115
Ömrün çiçəyi solmasın ……116
Yaşayam gərək ……...117
Niyə inciyim ……..118
Ana həsrəti ……..119
Lal gözəlim ……...120
Var ……..121
Könlüm ……..122
Anam ……...123
Köhnə sevgin üçün……124
Yaşaya bilmirəm sənsiz……125
Vəfasız ……...126
Apar, Vətənə məni ……...127
Gunəşlə doğuluram ……..128
Yaralı yaradıb……129
Sevinim……130
Ay işvəli, nazlı gözəl ……...131
Oldu ……..132
Qızlar ……133
Bilməyəcəksən……134
Bilmədim ……...135

Sevdiyim gözəl ……136
Nə qədər ömrüm var ……137
İnsan sevgidən də yetim qalanda……..138
Zübeyr……..139
Vurğunam……140
Gəl, qadanı alım sənin……...141
Mənim……...142
Ey yurdumun əsgərləri……..143
Sənin ……..144
Gözlərəm mən səni ……..145
Mən ……..146
Sevgilim ……..147
Sən ……..148
Qəlbim od tutub yanır……...149
Yar unutmaz ……..150
Sən uzaqda olanda ……...151
Unudum sənli illəri ……..152
Qayıt gəl ……..153
Azərbaycan şahinləri ……154
Şəhid ……155
Təbrizim……..156
Xəbər göndərəm……..157
BAYATILAR…….……...158

Redaktor: **AYB və AJB üzvü, Sədi Yaradanqulu**

Kompüter tərtibatı: **Əli Tağıyev**

Operator: **Orxan Qaralov**

Üz qabığının dizaynı:

Nəşriyyatın direktoru:
professor Nadir Məmmədli

Dizayner: Zahid Məmmədov
Tərtibatçı dizayner: Tünzalə Tağıyeva

Çapa imzalanmış 05.07.2017.
Şərti çap vərəqi 11. Sifariş № 514.
Kağız formatı 84x108 1/32. Tiraj 200.

Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya müəssisəsində
hazır diapozitivlərdən çap olunmuşdur.
E-mail: nurlan1959@gmail.com
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.

Qaralova Rahilə Seyfəddinqızı 1967-ci ildə Borçalının Başkeçid (indiki Dmanisi, Gürcüstan) rayonunun Şahmarlı kəndində anadan olub. 1985-ci ildə Başkeçid rayonunda 2-saylı Azərbaycan Orta məktəbini, sonra Tbilisi şəhərində Maliyyə texnikumunu bitirmişdir. Orta məktəb illərində "Azərbaycan Pioneri" qəzetində və yerli qəzetlərdə kiçik şeirləri dərc olunmuş, hal-hazırda isə dövrü mətbuatda, eləcə də "Xəzan Jurnalı"nda, "Zirvə" poeziya antologiyasında şeirləri çap edilmişdir.

"Dirili Qurbani Ədəbi Məclisinin" üzvüdür. Qafqaz Media İçtimai Birliyinin təsis etdiyi "Cəsarətli Qələm Diplomu" ilə təltif olunmuşdur. "Qərib Həsrəti" kitabından sonra ikinci kitabıdır.

Ailəlidir, iki övladı və iki nəvəsi var.